NƏZAKƏT ƏZIZOVA

# GÖZLƏRIMIN GÜNAHI

BAKI - 2008

# ANOTASIYA

## Əzizova Nəzakət Məhərrəm qızı

***«Gözlərimin günahı» şeirlər kitabı 1992-ci il nəşrinin latınla transliterasiyasıdır.***

«Gözlərimin günahı» adlı şeirlər kitabında məhəbbətdən doğulan xeyirxah hisslərə qarşı yaranmış bədxah hisslər üz-üzə qoyulmuş, vəfasızlıq, xəyanət, dar məqamda Allahı çağırış nidasıyla cəmiyyətdəki məhəbbətlə bağlı həll olunmamış problemlər mərkəzə çəkilmiş, məhəbbətdə vəfanın, sədaqətin, ləyaqətin, təntənəsi tərənnüm edilmişdir.

# *VƏTƏN AĞRILARI*

## VƏTƏN

Çay dənizə can atmırsa,
Quruyacaq yolda-izdə.
Dəniz çayı yaşatmırsa,
Məhvə labüd gur dəniz də.

Yumruq olar beş barmaqdan,
Sıxılarsan, beşi də bir.
Qorx ey Vətən, tək olmaqdan,
Birlik elə qələbədir.

## DÖZMÜRƏM

Elin dərdi ürəyimin dərdidir,
Dərdi yükdü ürəyimdə dözmürəm.
Mən xalqımın haqq səsindən biriyəm,
Xeyli vardır təlaşlıyam bezmirəm.

Ədalətə, haqqa vardır imanım,
Tapdalanır, itirilmir gümanım,
Inanıram haqq işinə dünyanın,
Haqq mənimdi, haqqım üçün gəzmirəm.

Pay vermişik qardaşlardan birinə,
Inanmışıq heç olmamış pirinə,
Sahib olub torpağıma, zərimə,
Namərd çıxıb, namərdliyə dözmürəm.

## MÜSTƏQİLLİK

Bar ağacı sevmədi,
Mən müstəqiləm – dedi.
Bar torpağa qarışdı,
Cana gəldi alışdı,
Kökü inkar eylədi,
Mən müstəqiləm-dedi.

Gövdədə yarpaq açdı,
Budaqlanıb qol açdı,
Gövdəni bəyənmədi,
Mən müstəqiləm-dedi.

Budaqdan çiçək açdı,
Hər yerə ətir saçdı,
Budağı bəyənmədi,
Mən müstəqiləm-dedi.

Çiçəklər bar gətirdi,
Ömrü başa yetirdi,
Bar mənəm-mənəm –dedi,
Mən müstəqiləm-dedi.

İnkarı inkar edən
Həyat – çevrilmədədir.
Gedişdə an qazanmaq,
Həyatın tələbidir,
Müstəqillik arzusu
Daimidir, qətidir!

## ŞƏHID

Gecə yuxuma da qanlı gəlirsən,
Qanı torpağına qovuşan şəhid.
Xəyal tək yollardan sən dikəlirsən,
Haqq hanı?- Inləyib, soruşan şəhid.

Qara yanvar sənə Çin səddi oldu.
Qaradan bu yana keçə bilmədin.
Səbrinin kasası ləbələb doldu,
Olumu ölümdən seçə bilmədin.

Atan-anan qoyan ad qara geyib,
Qara xonçalara ümid qoymuşuq.
Gül kimi adları şəhid eyləyib,
Həna əvəzinə gülə uymuşuq.

## 19-DAN 20-NƏ KEÇƏN GECƏYƏ AĞI

Bu gecə qan ağlayar,
Qan yağar, qan ağlayar.
Gecənin qorxusundan
Ay, ulduz, dan ağlayar.

Bu gecə ağlar qalar,
Açılmaz, ağlar qalar.
Ölənlər rahatlanar,
Qalanlar ağlar qalar.

Bu gecə axmaz ağlar,
Yollara baxmaz, ağlar.
Şəhidlər yorğun düşüb,
Qərənfil qalxmaz ağlar.

Bu gecə vay gecədir,
Vaylıdı, vay gecədir.
Ay analar, kiriyin,
Gün gedib day gecədir.

## ARAZ DƏRDİ

Fikirdən ürəyim ağrı tapıbdır,
Fikirdən düşmüşəm dağa, arana.
Fikirlər başımı yaman qatıbdır,
Fikirlər başımı salıb dumana.

Bu fikrin nə sonu nə əvvəli var,
Ötdükcə saatlar artırlar nədir?
Bütün fikirləri zaman soyudar,
Məni qızışdırar vaxt qəribədir.

Oturub baxıram zaman dayanır,
Sükutdan soyuyur ayağım, əlim,
Adamlar yatanda fikrim oyanır,
Duranda bilmirəm durub neyləyim.

Əlimi uzatsam çatar elə bil,
Arazın suları lap azalıbdır,
Başımı qatıbdır qatar elə bil,
Fikrim bu səslərdə sanki azıbdır.

Qatar haray salır dərdi var kimi,
Bu səs ürəyimin hayına oxşar.
Arada sərhədlər lay divar kimi.
Uzanır, Arazın çayına oxşar.

Dərdim Araz dərdi, Vətən dərdidir,
O taylı bu taylı millətim çəkir.
Bu dərd Arazımın lap yaş dərdidir,
Bu dərd qatarın da belini bükür.

## HƏR GÜN

Gecədən xeyli keçib, yatıram səhər üçün,
Səhər qayğılarına an-an tələsirəm mən.
Oxuyuram yazıram, cürbəcür xəbər üçün,
Özüm də dərk etmədən ömrümü kəsirəm mən.

Ömrümün sonu məni addım-addım səsləyir,
Səsləyir sabahlara…Ömrümü məndən ala.
Hər şeyi bilmək eşqim ölümü üstələyir,
Ölümdən də öyrənib yazaram məndən ola.

## O DÜNYADAN MƏKTUB

Salam, mən öləndə ağlayanlara,
Salam, məndən sonra anana məni.
Salam, gözlərimi bağlayanlara,
Salam gecə-gündüz anama mənim.

Ölmüşəm, qorxulu deyilmiş ölüm,
Ruhum ayrılanda incidim bir az.
Gəlmişəm bu biri dünyanı görüm
Gedənin dalınca adam ağlamaz.

Hələ ki, cənnətlik olmamışam mən,
Cənnətin yolları xeyli uzaqdır.
Bütün günahlarım yanana qədər
Cənnət bağçaları uzanacaqdır.

Burda nə dayı var, nə də ki rüşvət,
Burda əməllərin məngənəsi var.
Burda hökm sürür ədalət, hörmət,
Burda ilahinin məhkəməsi var.

Cənnətlə-Cəhənnəm arasındakı
Məkkarə səddində haqq divanı var.
Burda hər kişinin sərbəst fikiri.
Burda adamların haqq umanı var.

Xülasə ixtiyar əlinizdədir.
Xəbər göndərdim ki, ağ-qara seçin.
Əgər xəbərlərə inanmasanız,
Onda Siz bu başdan Cənnətdən keçin.

## MÜASIRLIK

Uzaq bir səfərdən dönüb, gəlmişəm,
Ölüb ötən əsri görüb, gəlmişəm,
Ağabəyim ağanın, Heyran xanımın,
Boğça paltarını geyib, gəlmişəm.

Indi dağlardakı duman kimiyəm,
Bir az xətir-hörmət uman kimiyəm.
Gəlinlər adından «Sədaqət» gəzən,
Gəmisin gözləyən liman kimiyəm.

## HƏYAT

Həyat! Yaşamağa məni çağırdın,
Boynumu çiynimə qoyan anda da.
Yaşamaq eşqilə elə yanırdım,
Ölümlə üzbəüz dayananda da.

Həyat! Nə dayanar, nə tələsərsən,
Gözəllik nuruyla aşıb daşarsan.
Həyat! Sən pislərin yolun kəsərsən,
Sən bir gözəlliklə qucaqlaşarsan.

Həyat! Ilk övladın zamandır sənin,
Sənin nəticənin sınağındayam.
Xəyalım gördüyün xəyaldır həmin,
Saxta ideyalar qınağındayam.

Həyat! Anam kimi gözəl, mehriban,
Əlimlə saçına güllər taxardım.
Səni sözlərimlə edib çıraqban,
Səni özündən də gözəl yapardım.

Ağlımın yolusan, nursan gözümdə,
Gözüm gözəlliyə tamarzı qalmır.
Həyat! Sən əbədi mən yer üzündə,
Yolçuyam, yolçular yoldan qalanmır.

Həyat! Başa çatır yenə bir günüm,
Səhər sabahlara səsləyəcəksən.
Sənin yollarında mənlə sevgilim,
Baxıb öz eşqinlə əylənəcəksən.

## GÖZƏLLİK AŞİQİYƏM

Elə bil atəşlər dolub canıma,
Içimdən bir alov püskürür mənim.
Bir gənclik qüvvəsi hopub qanıma,
Içimdən bir alov püskürür mənim.

Gözlərim qorlanır bu alovlardan,
Dilim, dodaqlarım çatdıyır, yanır,
Qoluma güc axıb, sanki dağlardan,
Ayağım dağlara çıxıb, dırmanır…

Gözəllik gözümü işıqlandırır,
Doğma vətənimdə quşa dönürəm.
Içimdə bir alov məni yandırır,
Dağlardan düzlərə qaçıb enirəm.

Düzlər çiçəklərlə bəzənib təmiz,
Çiçək xalısında bəxtəvərəm mən.
Doğmalar içində, doğma vətəndə,
Gəzəllik aşiqi şiri-nərəm mən.

## *DUYĞULAR, HƏSRƏTLƏR*

Vüsal çəkilibdir dağ zirvəsinə,
Hicran dərələrə sinib ağlayır.
Məhəbbət yayılıb bağ kölgəsinə,
Ümidi qoynunda girov saxlayır.

## TƏRCÜMEYİ HAL

Sirli gün...
Səhər saat yeddi,
Var olmuşam mən.
Əjdaha ilində,
Payız fəslində,
Yeni qayğılarla
Doğulmuşam mən.
Alnım açıq olub,
Üzüm ağ olub,
Atama anama
Qulaq olmuşam.
Yarımı yerlərdən
Ucaldıb göyə,
Eşqindən çağlayan
Bulaq olmuşam.
Heç kəsin önündə
Göz qırpmamışam,
Heç kəsin yanında
Əyilməmişəm.
Düzlüyə həmişə
Tanrı demişəm,
Tanrıma həmişə
Sevilmişəm mən.

## BİR ÜRƏKDƏ

Mən varam…
Bir məndə var.
Bir ürək ürəyimdə,
Bir ürək də sinəmdə var.
Sıxılanda ürəyim,
Ürəyimdən köz tökülür.
Ah çəkib, söndürürəm
Damla-damla söz tökülür…

## QIYA BİLMİRƏM

Kirpiyinə sığınacaq yaşlara,
Ünvanına atılacaq daşlara,
Gülüşünə çatılacaq qaşlara,
Qıya bilmirəm.
Bu yazıya başqa ad
Qoya bilmirəm.

## GÖZLƏRIMIN GÜNAHI

Gözüm gözünlə gözləşdi
Düşüb ürəyimdə qaldın.
O sığallı baxışınla,
Bu məsum könlümü çaldın.
Könlümdəki bəyaz boşluq
Elə geniş, elə dərin,
Süzülürsən o boşluğa
Damcı-damcı, sərin-sərin.

## SƏNİ AXTARIRAM

Səni axtarıram səssiz, soraqsız,
Sükutun, harayın qanadlarında.
Səni axtarıram haysız, haraysız,
Neçə sualların cavablarında.

Səni axtarıram ağac dalında,
Səni axtarıram yol kənarında.
Səni axtarıram xəyallarımda,
Səni axtarıram, axtarıram mən.

## ƏGƏR SEVİNSƏN

Məni görüşünə çağır əzizim,
Sübhün toranında çən olum, gəlim.
Məni görüşünə çağır əzizim,
Minlərin içindən mən olum gəlim.

Çağır, özgə haray nəyimə lazım,
Bircə işarənə farağatam mən.
Yolumun üstündə duran daşların,
Hazıram minini təkcə atam mən.

Çağırma, amandır titrəyər səsin,
Bircə baxışınla işarə göndər.
Mənim gəlişimdən əgər sevinsən,
Sanaram dünyada mənəm bəxtəvər.

## GÖZƏLLİK EŞQİYLƏ SEVƏK SEVGİLİM

Duyğumuz dil açıb gəldi göz-gözə,
Baxışdıq…Könlümüz körpüyə döndü.
Bir səhər qəflətən gəldik üz-üzə,
Can-candan ayıran körpü göründü.

Qoşa addımladıq çay sahilində,
Körpüdə qovuşmaq arzusuyla biz.
Xeyli addımladıq yolun üstündə
Titrədi əlimiz, ürəklərimiz.

Baxıb üfüqlərə bu yol gedirdi,
Ümid işiğında gedirdik biz də.
Sahildə duyğular söhbət edirdi.
Bir körpü həsrəti ürəyimizdə.

Qovuşmaq, səadət bəxtəvərlikdir,
Körpüyə çatınca gəl gedək gülüm.
Yolun əzabı da bir gözəllikdir,
Gözəllik eşqilə sevək sevgilim.

## BƏXŞIŞ

Əttar kimi ətir satdım.
Hər ayıma, hər ilimə.
Nəğmələri mən yaratdım,
Bağışlayam sevgilimə.

Məndən sevgi diləmişdi,
Mən nəğmələr naxışladım.
Məndən bir «hə» istəmişdi,
Mən könlümü bağışladım.

Mən yaşanmış ili oldum,
Saçlarının bəyazında.
Göz oxşayan gülü oldum,
Ömrün qızıl payızında.

## SƏNİN KİMİ

Ağlımın gözüylə baxırdım sənə,
Çaşdırdın həyadan əsdi əllərim.
Nüfuzlu baxışla baxdım zirvənə,
Saldı ovsununa məni gözlərin.

Apardın dalınca, ilğım sehrinlə,
Nə gecə tanıdım, nə gündüz gördüm.
Mən sənə oxşadım, sənin eşqinlə,
Özümü itirib səni sevirdim…

## İSTƏK

Bir arzumun min əmrinə müntəzir,
Yaşayıram, gözləyirəm, ölmürəm.
Xəyalımda əzizlənir, gizlənir,
Həqiqətdi, ya yuxudu bilmirəm.

Cazibəsi aman vermir oyanım,
Xumarından dünyam olub toranlıq.
Istəyirəm bircə ona inanım,
Ümidlərdə axtarıram gümanlıq.

## SON ÜMÜDİM NƏĞMƏLƏRDİ

Hönkürtümə gülüş qatıb,
Hər bir şeydən məna dərdim.
Qış günündə ocaq çatıb,
Yaz gülü tək gülümsərdim.

Sevdiyimdən könül verdim,
Gənclik kimi bəxtəvərdim.
Bülbül kimi qəfəs gördüm,
Son ümidim nəğmələrdi.

## FƏRƏHİM MƏNİM

Adına tanrı deyib.
Saralıram qüssədən.
Yanacağam oduna,
Saçlarıma düşsə dən.

Əllərimi uzadıb,
Önündə din olmuşam,
Eşqinlə qidalanıb,
Bəxti xoşgün olmuşam.

Kədərimi gizləyib,
Sevincimi açıram.
Səninlə fərəhlənib,
Ömrümə nur saçıram.

## BİLƏRSƏN

Mən qara oxşayıb yağar başına,
İllərə çevirib gəlləm yaşına.
Mən qəmin olaram, çöküb başına
Quruyan göz yaşın ollam, bilərsən.

Acı gülüş ollam sinəndə inan,
Zərrin atəş ollam dinəndə inan.
Gah xəyalın ollam, gah da ki, güman,
Gah da gilə-gilə sollam, bilərsən.

Düz dünya dolanıb, tapmaq istərsən,
Son dəfə uzaqdan baxmaq istərsən,
Onda zülüm-zülüm dərd çəkəcəksən,
Göylərdə sənünçün qallam, bilərsən.

## SƏNİ GÖZLƏYƏCƏYƏM

Saçımda dən yoxdur, görmüşəm səni,
Qar kimi ağarsa, gözləyəcəyəm.
Bədənim güclüdür, cavan çağımdır,
Nun kimi qocalsam, gözləyəcəyəm.

Nə vaxtdır sükutun toranındayam
Gecəm gündüz olsa, gözləyəcəyəm.
Titrəyən əllərim sənə uzanıb,
Gündüzüm qaralsa, gözləyəcəyəm.

Dünya havasına könül qapanıb,
Sən onu açınca gözləyəcəyəm.
Səni görən andan gözlərim yanıb,
Peymanə çatınca gözləyəcəyəm.

## PÜNHANIQ

Bir gözü var sevgilimin ay aman,
Baxar mənə xumarından yataram.
Rəqiblərin baxışından qorxmuram,
Rəqiblərim ad qoyub «qız qaytaran.»

Su sonası gözəllər var «gəl bəri»,
Üzləşəndə yıxılarlar yoxuşa.
Korlar görür yoxdur onun bənzəri,
Sevən gözlər tab gətirməz baxışa.

Bircə sözlə ovunduran, yandıran,
Əzabları oxşayışlı canıq biz.
Səssiz-küysüz hikmətləri andıran,
Fərmanlara qol çəkən pünhanıq biz.

## QIYMADIN

Bir sevginin atəşilə qalandım,
Odum közüm ürəyində yanmadı.
Nəyim vardı atdım onu odlayam,
Tüstüləndi, od görməyə qoymadı.

Ilan kimi qabağında mələdim,
Sevdim onu, məhəbbətə bələdim.
Göz yaşımı ətəyinə ələdim,
Torpaq olub, göz yaşımdan doymadı.

Həsrətindən könlüm gözü yaşlıdı,
Bu eşqidən mənim başım daşlıdı,
Odunlarım ocağında yaşmıdı?
Tonqal çatdım, püfləməyə qıymadın?

## UYMADIM

Ürəyimdə bir həsrətin özü var,
Bu həsrətin həsrətindən doymadım.
Ürəyimdə bir arzumun gözü var,
O arzumu böyüməyə, qoymadım.

O arzuya pillə-aillə çıxaydım,
O həsrətin gözlərinə baxaydım.
Əzabları silkələyib, yıxaydım,
Yıxıb onu əyilməyə, qıymadım.

Ürəyimdə ürəyimin qanı var,
Sıxılanda titrəyirəm, canı var.
Dünya varmı məim üçün, hanı var?
Şükür, yalan bir diləyə uymadım.

## DUYUB SEVMİŞƏM

Dönüb taleyimə mənlə vuruşdun,
Sənin vuruşunla barışan oldum.
Inandın yolunda mətin durmuşdum,
Özümə güvənib yarışan oldum.

Tutdun qüdrətinlə gözlərimi sən,
Özümü itirib, səni hayladım.
Inadla sınadım kimsən nəçisən?
Sən də haqq yolunda mənə qıymadın.

Nə vara əyildim, nə zər aradım,
Əzəldən düzlüyə tanrı demişəm.
Minlər arasında nəzər anladım,
Anıb əyilmişəm, duyub sevmişəm.

## SƏN DEMƏ

Dəryaların dibindədir hər nə var,
Gəmilərdən görünməzmiş sən demə.
Çır-çırpını yandırarmış alovlar,
Istiləri bilinməzmiş, sən demə.

Zərgəz zərə qiymət verən adamdır,
Qiymətləri düz verərmiş, sən demə.
Hər bir işə sığal çəkən zamandır,
Son sözünü düz deyərmiş, sən demə.

Ömrü verən atam-anam amandır,
Ömür sizin, sahib mənəm sən demə,
Bir könüldən min könülə sevmişəm,
Sevənlərə can halalmış, sən demə.

## GÖZÜM QALMAYIB

Şey alanda yaxşısını almışam,
Dost olanda yaxşısından olmuşam,
Tək olanda tənhalıqda qalmışam,
Peşmançılıq məni əldən salmayıb.

Vurulanda oxu gözdən vurmuşam,
Sındıranda ancaq beldən qırmışam,
Yıxılanda ayaq üstə durmuşam.
Ürəyimdə bir nisgilim olmayıb.

Şadlığımdan şaqraqlarla gülmüşəm,
Kədərimdən ayaq üstə ölmüşəm,
Öz dərdimi özüm ilə bölmüşəm,
Orta yerdə heç vaxt gözüm qalmayıb.

## BİLMƏDİM

Bu dünyanın işdəkləri nağılmış,
Şirin-şirin yatırırmış, bilmədim,
Sehirindən gözümdən qəm sağılmış
Ciyərimdən qan damırmış bilmədim.

Bu dünyanın döngələri enişdi,
Qisas qalmır qiyamətə nə işdi.
Kim tökmüşdü qazana nə, o bişdi
Kim hazırın aşırırmış-bilmədim.

Daldan atan topuğundan vurarmış,
Zəhmətsizlər kef məclisi qurarmış,
Mənim başım neçə illik sulamış,
Cavablara alışırmış bilmədim.

## UNUTMA MƏNİ

Əhdə sədaqətə könül verənim,
Dar gündə xatırla, unutma məni.
Bir gözü ağlarım, biri gülənim,
Astaca harayla, unutma məni.

Dönüm bulud olum, göydən çilənim,
Qıyıb gözlərini unutma məni.
Gizlənə-gizlənə qeybdən gəlim,
Qucum dizlərini, unutma məni.

Çilçırağın olum nura boyanım,
Alışdır oduna, unutma məni.
Kaman tək inləyim, şam kimi yanım,
Yaraşdır adına, unutma məni.

## XOŞUMA GƏLİR

Şerimin ilhamı məndən inciyib,
Bəxtimin çiçəyi boyun bükübdür.
Həsrət gözlərimi pis sürmələyib,
Qaradan gözümə kölgə çökübdür.

Könlüm bu küsküdən kiriyən deyil,
Qoy bu sükut ahı gen düşsün məndən.
Mənim ümidlərim əriyən deyil,
Bəlkə od tutandır məhəbbətimdən.

Min cür şirini var başımın altda,
Umu-küsüsü də xoşuma gəlir.
Boynumu çiynimə qoyan saatda,
Şip-şirin sözləri başıma gəlir.

## «MƏN SƏNƏ ƏLVİDA DEMİRƏM» – DEDİN

Mən sənə əlvida demirəm- dedin,
Ümidim sükutun bağrını yardı.
Uzaq gələcəyə ümid elədin,
Çırpınan könlümün ritmi azaldı.

Mən sənə əlvida demirəm –dedin,
Açılmış gözlərim yumuldu birdən.
Göylərdən üstümə ümid elədin,
O vaxt ki, ölürdüm ümidsizlikdən.

Mən sənə əlvida demirəm –dedin,
Bu sonuncu sözün hikməti aydın.
Mənim sabahlarım necə olardı?
Mənə həyat verən sən olmasaydın?

## DAŞ ATDIN

Eşqimə könlümdə layla çalmışdım,
İllər arasında yatmışdı eşqim.
Sükut dərəsində mürgü bağında,
Gözüm qarasında batmışdı eşqim.

Elə qəfil çıxdın ömür yoluma,
Şəbnəmlər ələndi batmış eşqimə,
Sən aşkar gələrək yuxularıma
Qəflətən daş atdın yatmış eşqimə.

Şirin vüsalına çatmasam da mən,
Bir ömrü bir eşqə qurban eylədim.
Sənli bağçaları gəzib xəyalən,
Sənlə yuxularda peyman eylədim.

Qətran gecələrdən günəş doğulur,
Hicranın dalınca vüsal gələcək.
İndi könül gülüm sənsiz sovulur,
Bir azdan eşqinlə düyməl期ənəcək.

## İLHAMIM OL

Sən ki, min dərdimin bir dərmanısan,
Niyə bir sözündən min gül açmayım?
Sən vurğun könlümün öz ünvanısan,
Mənzilə çatmağa niyə qaçmayım?

Intizar kəsilib bircə zənginə
Sözü söhbətləri yasaq eylədim.
Dediyin hər sözün yüz cür rənginə.
Neçə gündüzləri dustaq eylədim.

Arzumu gözümdə qoyanım olma,
Mən sənin möhtacın, sən gümanım ol.
Hey durum başına dolanım, amma,
Köç şair könlümə, köç ilhamım ol.

## ŞİRİN YUXU KİMİ

Başının üstündə çətir olaydım.
Qoruyaydım səni qardan, yağışdan.
Burnuna xoş gələn ətir olaydım,
Duyub axtaraydın sən ilk baxışdan.

Dönəydim yolunda maraqlarına,
Baxdıqca baxaydın, əylənəydin sən.
Qəfil gecikəydin sən ünvanına,
Vaxtın qarasınca söylənəydin sən.

Axaydım beyninə fikrin olaydım,
Dünyada ayrılıb, anaydın məni.
Göz qapağın olub, mən yumulaydım,
Şirin yuxu kimi sanaydın məni.

Beləcə illərlə oynayaydıq biz,
Unudub dünyanın dərdi-sərini.
Dönəydik gəncliyə qaynayaydıq biz,
Duyaydıq həyatın fərəhlərini.

## KƏDƏR YOLDA YUBANSIN

Hər dəfə dərdimi danışanda,
Təzədən o dərdə bələnirəm.
Hər dəfə kədərdən alışanda,
Qara buludlar tək çilənirəm.

Hər dəfə… peşman oluram,
Hər dəfə… qüssədən soluram,
Hər dəfə də bu dəfələrdən,
Uzaqlaşmaq istəyirəm ürəkdən.

Mən sevincimi bölmək istəyirəm,
Sevincdən dostlarıma təbəssüm çatsın.
Mən xoşbəxt görünmək istəyirəm,
Talem kədəri yolda yubatsın.

## ÜMİD DOLU PİYALƏ

Sən ümidlə dolu bir piyaləsən,
Suzundan ciyəri alışan mənəm.
Sən dan qızartısı, nursan, haləsən,
Eşqindən gecəynən barışan mənəm.

Sən bir cüt dodağın istisin duyan,
Vüsal həsrətinlə uyuyan mənəm.
Sən sənət qüdrətli sözlü aşiyan,
Səni misra-misra oxuyan mənəm.

Sən səhər nəfəsli ümid selisən,
Nurunda, yuyunub bəzənən mənəm.
Sən ətirlə dolu həyat gülüsən,
Mən də məhəbbətdən hey ətirlənən.

## MƏHƏBBƏT

Azad rəssam kimi məhəbbtimi,
Yeddi rəngə çalan sözlə yazmışam.
Bu azad uçuşda mən heyrətimi,
Gahdan anlatmışam, gahdan azmışam.

Məhəbbət nə qanun tanıyır, nə qan,
Könlünə doldusa, baş əyməlisən.
Məhəbbət zövq alır hər cür əzabdan,
Məhəbbət şıltaqdır, əyilməlisən.

Məhəbbət ağ rəncli tüldü, ipəkdir,
Elə tamaşası könlümə bəsdir.
Məhəbbət- əqlimiz dərk edəcəkdir,
Bizi yaşatmağa ancaq həvəsdir.

Məhəbbət dünyanın bəzəyi, tacı,
Onsuz həyat əzab, dünya virandır,
Məhəbbət, hər cürə dərdin əlacı,
Məhəbbət həyatdır, həyat qurandır.

## XOŞBƏXTİ TALE SEÇİR

Dünya-dərk olunan, insan – dərk edən,
Zaman – gecə-gündüz naxış pozandır.
Aqillər dünyanı görüb kəşf edən,
Şairlər bu kəşfi duyub yazandır.

Dünyanın yolları çoxdu dünyada,
Min bir əzablısı ömür yoludu.
Bəxti gətirənlər toxdu dünyada,
Nakamlar dünyadan gözün yumubdur.

Dünyadan hərəyə bircə şey qalar.
Alanlar sevinər, almayan seçər.
«Xoşbəxtlik» haqqında hamı arzular,
Xoşbəxti dünyada talelər, seçər.

## OX VƏ HƏDƏF

Ox və hədəf özgə tamdı,
Sən o tamı yoxlamısan.
Ürəyimi nişan alıb,
Dörd tərəfin oxlamısan.

Zəif yerim təkdi mənim,
Oxu ora tuşlamısan.
Sipərim köynəkdi mənim,
Dözümümü yoxlamısan.

Ədalətli ustadımsan,
Qiymət üçün gəzmişəm mən.
Sən qolumsan, qanadımsan,
Qiymətimi sezmişəm mən.

Baş əymişəm qüdrətinə,
Ədalətin eşqin mətin.
Sən mənim ol, mən də sənin
Qulu olaq nəhayətin.

## TAPŞIR GÖZLƏRİNƏ

Qorxusuz yaşamışdım,
Səni görənə kimi.
«Həri» bağışlamışdım,
Dədəm verənə kimi.

Keçmişdim sən tərəfə,
Bizə qalib gələsən.
Dədəmlə qorxudurdum,
Nişana tələsəsən.

Nişanlım ola-ola,
Səndən qorxuram yenə.
Gözlərinə tapşır ki,
Yan-yan baxmasın mənə.

## HƏDİYYƏ

– Başım səninkidir, götür ey mələk,
– Başın sənin olsun, nəyimə gərək?
– Başımdan qiymətli söylə nəyim var?
Yüz başa bərabər bir ürəyin var.
– Ürək ovlamağa qüdrətin varmı,
Sevib oxşamağa səbrin çatarmı?
– Səbrimi qəfəsdən buraxsan hərgah,
Eşqimin gücündən olarsan agah.
– Qadının bəzəyi zəifliyidi,
Gücü gözdən salar eldə iyidi.
– Eləsə, bəxşişi gərək dəyişək,
Ürək tabe olar ağıla bişək.

## DÖRDLÜKLƏR

Xəyalınla məhəbbətim gilə-gilə nəğmələnir,
Ilhamıma xəyalından damla-damla nur çilənir.
Sənsizliyim elə uzaq, məhrəmliyin elə yaxın,
Etibarın ürəyimdə canına canım güvənir.

* * *

Sənin xəyalınla elə xoşam ki,
Gecəyə, gündüzə məhəl qoymuram.
Sənin surətinə ay baxmışam ki,
Nə qədər baxsam da yenə doymuram.

* * *

Sözlər seçmisən ki, arifə candır,
Işarən hər biri bircə dərmandır.
Xəyala daldıqca xumarlanıram,
Qəsdin öldürməksə öldür, amandır.

* * *

Inan ki, eşqindən məst olmuşam mən,
Dən kimi odunda qovrulmuşam mən.
Sənin ətrin ilə cəh-cəh vurmuşam,
Guya ki, sən gülsən ağlar quşam mən.

## QURBANAM

Bircə sözün bir il məni ovudar,
Axşam-sabah diqqətinə qurbanam.
Bir hənirin yüz dərdimi dağıdar,
Ürəyində qeyrətinə qurbanam.

Il mütəssil diqqətimdə dayandın,
Igid kimi hörmətinə qurbanam.
Donmuş idim, atəşindən oyandım,
Qoymadığın minnətinə qurbanam.

Sən arzumun çiçəyisən barısan,
Mən ətirli nemətinə qurbanam.
Könlüm bakir, sən könlümün yarısan,
Söz zərgərim, sənətinə qurbanam.

Sən göylərdən yetirdiyim qənimət,
Torpaq üstə ülfətinə qurbanam.
Sən tanrımsan, sevgilimsən nəhayət,
Məhəbbətli söhbətinə qurbanam.

Axşam-səhər intizarda durmuşam,
Səndə olan mətanətə qurbanam.
Neçə ilin həsrətlisi olmuşam,
Çəkdirdiyin o həsrətə qurbanam.

Vüsal dəmi yaxınlaşır günbəgün,
Saat-saat, nəhayətə qurbanam.
Mən adını gizlətmişəm qəlbimdə,
Aşkar olan sədaqətə qurbanam.

## İSTƏYİRSƏN

İstəyirsən həsrətinlə verim can,
Qara gözüm bozarınca ağlayım.
İstəyirsən hicranınla gün axşam,
Anım səni, xəyalınla oynayım.

İstəyirsən göz yaşımla üzümü,
İsti-isti yuyum, səni gözləyim.
İstəyirsən söhbətimi-sözümü,
Vüsal üçün saxlayım, əzizləyim.

Istəyirsən illər alsın canımı,
Ümidlərim zərrə-zərrə talansın.
Istəyirsən qalan din imanımı,
Boğum atım, atəşlərə qalansın.

İstəyirsən sənin istəklərinə,
Diqqət olum, lal dayanım ölüncə,
İstəyirsən məni özün məhv eylə,
İstəyirsən çevir məni gülüncə.

İstəyirsən, nəyim varsa sənindi,
İstəyirsən səninkiyəm mən indi.
İstəyirsən ya vüsal ver, ya hikmət
İstəyirsən lap lənətlə nəhayət.

## KEFİMİN KEFİDİR

Sən udan havanı mən də udmuşam,
Kefim yüksəlibdi doxsana, yüzə.
Dünyanın dərdini mən unutmuşam,
Qoy cəhənnəm olub, qalmasın bizə.

Burnumun ucu da göynəyib bu gün,
Sənin həsrətinlə, səndən ötəri.
Boynumu uzadıb, gəzmişəm elə,
Necə ki, bala quş dəndən ötəri.

Kefimin kefidir, ağ günə çıxıb,
Kefimin könlünə Ay düşüb yaman.
Kefimə nə var ki, evləri yıxıb,
Özü də kefi kök gəzir qorxmadan.

## GÖZLƏYƏCƏYƏM

Gecə-gündüz səni oxşayacağam,
Dedim: – nə qədər ki, sevirsən məni.
Dedin: – gözüm üstə saxlayacağam,
Xoşbəxt edəcəyəm hər zaman səni.
Dedim: – elə demə göz dəyər bizə,
Dedin: – nur səpəcəm mən eşqimizə,
Dedim: – ehtiyat et, düşməndən dostdan,
Dedin: – mən heç kimdən deyiləm qorxan.
Dedim: – titrəyirəm səsindən sənin,
Dedin: – titrəyirəm mən də mələyim,
Dedin: – vurulmuşam gördüyüm andan,
Dedim: – istəmişdim mən yaradandan.
Dedin: – sevəcəyəm nə qədər sağam,
Dedim: – gülün ollam, sən mənim havam,
Dedin: – əhdimizə and iç inanım,
Dedim: – sən alışdır oduna yanım.
Dedin: – həsrətinə dözməyəcəyəm,
Dedim: – həsrət ilə gözləyəcəyəm…

## SƏNDƏN YAXINIM

Səndən ötrü ürəkdən dərd çəkirəm,
Qoy ölüm-dirilim, dəymə könlümə.
Buludam, gözümdən yaşlar tökürəm,
Dünyada nemətlər gəlmir meylimə.

Bıçaqlar saplanır məhəbbətimə,
Tənələr, eyhamlar heysiyyətimə,
Şübhələr oyanır sədaqətimə
Gileylər, güzarlar gəlmir eynimə.

Ürəkdən alışıb, gözdən yanıram,
Təklikdən xoflanıb, havalanıram.
Sənin varlığından qaralanıram,
Səndən lap yaxınım gəlmir beynimə.

## MƏNİ SƏN OXU

Sən mənə məhəbbət bəxş elədin ki,
Əfsanə yanında suya getməli.
Ömrümə çiçəklər nəqş elədin ki,
Ətrindən bülbül tək yüz il ötməli.

Sən məni bir sözdən duydun elə ki,
İllərlə susmağa təəssüfüm yox.
Mən sənin eşqinə uydum elə ki,
Məcnun olmağıma təəccübüm yox.

Sən mənim könlümə köçdün elə ki,
Təkliyin daşını atdım quyuya.
Eşqin şərbətini içdim elə ki,
Məstlikdən gözlərim çətin uyuya…

## ƏRK ELƏDİN

Elə ərk eylədin hədələrinlə,
Mehrimi hədənin hökmünə saldım.
Dedin: – mənimkisən, mənimkisən sən! –
Bağrım çatlayardı gər olmasaydım.

# DEDİN – DEDİM

Dedin: – məhəbbət nədir?
Dedim: – çətindir demək.
Dedin: – məhəbbət nədir?
Dedim: – qurban eyləmək.
Dedin: – səxavət varmı?
Dedim: – ürək böyüksə,
Dedin: – könül verərdim.
Dedim: – sevən dönüksə?
Dedin: – ədalət varmı?
Dedim: – həyat göstərər.
Dedin: – həyat nə bilir?
Dedim: – sevənlər deyər.
Dedin: – sevmək nə gözəl…
Dedim: – sevgi həyatdır.
Dedin: – mən də sevirəm.
Dedim: – sevdin, yaşatdır.
Dedin: – mənə ömür ver,
Dedim: – alan itirər.
Dedin: – telem kömək ol.
Dedim: – baxtın yetirər.
Dedin: – söylə, baxt nədir?
Dedim: – zəhmət, ədalət.
Dedin: – onu kim verir?
Dedim: – verir məhəbbət
Dedin: – məhəbbət nədir?
Dedim: – sülhdür nəğmədir.
Dedin: – məhəbbət nədir?
Dedim: – sülhdür nəğmədir.

## ADİLƏR İÇİNDƏ

Mən elm aləmindən hali deyildim,
Özümü toplayıb, girdim ora mən.
Bir kitabı sevdim ona əyildim,
Bilmədim özümü saldım dara mən.

Sokratı oxuyub, Cəlilə döndüm,
Dağlardan dırmanıb dərəyə endim,
Hardan baxıadımsa, yollar görürdüm,
Yol gedib axırda yolçuya döndüm.

Adi bir yolçuya, onda ayıldım,
Adam arasında adam sayıldım.
Kallıqdan yol keçib, oldum yetişmiş,
Olmuşam göylərdən mən yerə düşdüm.

Yüz adın içində birin verdilər.
Beşindən onundan arif dedilər.
Axır istəyimə qadir olmuşam,
Adilər içində nadir olmuşam.

## NƏĞMƏLI ÖMÜR

Nəğməli ömrümün bahar çağıdır,
Qönçələr könlümdə gülə dönübdür.
Sevdalı könlümün səhər çağıdır,
Güllərə gözümdən şeh tökülübdür.

Nəğməli ömrümün bahar çağıdır,
Misralar beynimdə yetkinləşirlər.
Şerlər ömrümün nübar bağıdır,
Dəydikcə budaqda gözəlləşirlər.

Nəğməli ömrümün bahar çağıdır,
Sözlərim al-əlvan dəyir-yetişir.
Yazdığım şerlər sevda bağıdır,
Içində gəzdikcə zaman ötüşür.

Nəğməli ömrümün bahar çağıdır.
Hər ömrün öz gözəl aləmi vardır.
Nəğməli ömrümün zəfər çağıdır,
Mənim də şerimin öz təmi vardır.

## AYIRSA ÖLÜM

Həsrətin gözümü dağlayacaqdır,
Ayrılıq-könlümü peşman qoyacaq.
Öləcəm, qohumlar ağlayacaqdır,
Eşqimdən sözsüz ki, torpaq doyacaq.

Qəbrimin üstündə həsrət bitəcək.
Ahımdan tikanlar saralacaqdır.
Eşqin yanğısından gül göyərəcək,
Qəbrimin torpağı qaralacaqdır.

Ruhum çırpınacaq dar yorğanında,
Torpaqlar gözümə ələnəcəkdir.
Həsrətin ağrısı yatar canımda,
Ot-ələf bağrımdan göyərəcəkdir.

O dünyam, bu dünyam yanar-yaxılar,
Əlimi dizimə min yol çırparam.
Bağlanar üzümə hər cür qapılar,
O dünya bu dünya sənsiz qorxaram.

Qorxudan göylərə çəkilləm gülüm,
Qorxudan mən şimşək, haray olaram.
Bizi ayırammaz, ayırsa ölüm,
Göylərdən ruhunu soraqlayaram.

## SƏBİRLİ OL

Dedim: – şahzadəmsən, şahımsan mənim,
Dedin: – şahənşaha gendən baxarlar.
Dedim: – sevincimsən, ahımsan mənim,
Dedin: – uzaq dayan, məni yıxar ar.
Dedim: – gəl yaşayaq, bu dünyada biz,
Dedin: – yaşayanlar qalmazlar yadda.
Dedim: – o dünya var cansız, fərəhsiz,
Dedin: – arzularım yaşar həyatda,
Dedim: – bir həyata min arzu dəyməz,
Dedin: – bu həyatda iz qalacaqdır.
Dedim: – gecələrdən sabah görünməz,
Dedin: – müdrik olan yaşayacaqdır.
Dedim: – müdriklərdən nə qaldı bizə?
Dedin: – söz və əməl. Bir aləm hikmət.
Dedim: – heyran oldum mən səbrinizə,
Dedin: – səbirli ol sən də Nəzakət.

## DÜNYANI DƏRK ETMİŞƏM

Dünya bir ev idi, ev də bir dünya,
Filin qulağında mürgüləyirdim.
Arabir evimin pəncərəsindən,
Dünyaya baxaraq seyr eləyirdim.

Hər şey adi idi, həlim, mehriban,
Odun atəşi də ancaq od idi.
Heç nə seçilmirdi sadə parçadan,
Könlümdə adilər yalnız yad idi.

Əntiqə və nadir gözəllikləri,
Duyurdum, axtarıb tapa bilmirdim,
Qəlbimdə baş verən əkslikləri,
Düşünüb anırdım yata bilmirdim.

Axtaran tapacaq, axtardım mən də,
Cığırdan adlayıb, dağa dırmandım,
Axtara-axtara bu yer üzündə,
Neçə od tapdayıb, neçə yol yandım.

Hər tapıntı mənə ömür verirdi,
Tapıb, fərəhimdən yüngülləşirdim.
Axtara-axtara dünya görürdüm,
Özüm öz-özümə gözəlləşirdim.

Indi anlayırdım, niyə tək gəzir,
Şöhrəti hünəri böyük olanlar.
Niyə onlar hərdən hey gülümsəyir,
Onlar – dünya görüb, yola salanlar.

Qovuşdu xəyalım dünyaya mənim,
Indi gülüşlərim cingildəyəcək.
Təkcə öz dərdinə dözən ürəyim,
Indi bir dünyalıq dərdə dözəcək.

## KƏDƏR

Kədərin öz paltarı var,
Əlvan olmaz, şəfəq saçmaz.
Tutqunluqda qara bulud,
Ağırlıqda ağırlardan ağır olar.

Kədər gəzər ağır-ağır,
Zərrə işıq qarşılamaz.
Şadlıq onu qarşılarsa,
Mindən birə anlayanmaz.

Kədər kədər libasında,
Əzəmətdir qorxuludur.
Sevinc onun hüzurunda,
Cəsarətsiz yuxuludur:

Kədərin lal baxışları,
Sözsüz deyən dili vardır.
Kədərin öz mənzərəsi,
Çox davamsız eli vardır.

## GÖRÜŞƏ GƏLMƏMIŞDIN

Çiçəklərin arasında,
Sən istəyən gülü gördüm.
Aldım onu əllərimə,
Ötüb keçən ili gördüm.

Ləçəkləri zərif-zərif ,
Ürəyinin teli kimi.
Incik-incik töküldülər,
Gözlərimin seli kimi.

Budağının qurusunda,
Ayım gəzdi, ilim gəzdi.
Xatirələr arasında,
Sükut dəmi dözülməzdi.

Görüşünə gəllmiş idim,
Elə bil ki, ötən ildən,
Sən görüşə gəlməmişdin,
Mən xəcalət oldum güldən.

Güldən dəstə düzəltdirdim,
Bir-bir alıb, baxa-baxa.
Evimə qonaq gətirdim.
Gözümdən yaş axa-axa.

## GÖRÜŞ

Dayan, bir az danış, dedim,
Yox, yox məndən doyma – dedin.
Getməməyə çalış – dedim,
Tut əlimdən qoyma – dedin.

Dəqiqələr ötdü bir-bir,
Söz tapmadıq danışmağa.
Qolunda saat tələsir,
Əlac qaldı baxışmağa.

Baxışlarda nələr yoxdur,
Sevgi, arzu, qorxu, həsrət.
Əllərimiz əsə-əsə,
Sağollaşdıq biz nəhayət.

## SƏDAQƏT GƏTİR

Ağlamaqdan doymuşam,
Sən mənə gülüş gətir.
Ağlar qalan bu könlüm,
Sızlayıb, sətir-sətir.

Ilkimdən yarımadım,
Yandım sevda sarıdan.
Ilk oxum daşa dəydi,
Ömrüm keçdi yarıdan.

Dərdimə dərman kimi,
Vəfa, məhəbbət gətir.
Mən hər şeydən doymuşam
Mənə sədaqət gətir.

## VÜSAL

Mən yuxuda vüsalına çatmışam
Baş qoymuşam sinəsinə yatmışam
Ləblərimlə dodağından dadmışam,
Dadı-duzu ürəyimdə qalıbdır,
Tanrım gəlib özü mənim olubdur.

Bəxtəvərəm tanrım ilə üz-üzə,
Dayanıram yavrum ilə göz-gözə.
Qarışıbdır dil dodağa söz-sözə
Gül-güldanə, qaymaq-südə batıbdır,
Həsrət küsüb, vüsal kama çatıbdır.

## XOŞBƏXTLİK

Açdı ağuşunu,
Atdım özümü.
Dedi: «Ox, gözəlim»,
Yumdum gözümü.
Öpdü, inildədim,
Məst olduq o, mən
Ikimizdən qaldı,
Bir can, bir bədən.

## ÖZÜM

Məni məhəbbətlə, yatırtmısan sən,
Eşq ilə yuxudan durmuşam özüm,
Məni söz-söhbətlə, yaşatmısan sən,
Sözlərdən nəğmələr qurmuşam özüm.

Saçımı nəfəsin sığallayıbdır,
Daraqla darayıb, hörmüşəm özüm.
Gözlərin üzümə işıq yayıbdır,
Fərəhi içimdə görmüşəm özüm.

Məni xoş baxışla yola salmısan,
Dadlı ümidlərlə dönmüşəm özüm.
Mənim varlığımı məndən almısan,
Ən ucuz qiymətə… enmişəm özüm.

## SUS …. SUS

Sevginin əzəli susmaq,
Duyğunun gözəli susmaq,
Sus… sus.

Imran dilin ola-ola,
Bəmin zilin ola-ola,
Sus…sus.

Gecənin bəzəyi susmaqdır,
Sus…sus

* * *

Susub gözlərini qıaparsan bir gün,
Əlini dizinə çırparsan bir gün,
Məni itirməkdən qorxarsan bir gün,
Sus…sus..
Susmaq Kərim olub,
Təvəkkül olub.
Susa-susa bu xalqın,
Işləri müşkül olub.
Sus…sus..

## ÖZGƏSİNƏ UYAN

Sən ey ürəyimin ahı, amanı.
Sən ey gözlərimin çəni dumanı.
Qaraldıb gözümdə bütün dünyanı,
Gözümü yollarda qoyan, hardasan?

Soyuyub evimin daşı divarı,
Çoxalıb, könlümün yası qubarı.
Mənimlə tək qoyub, xatiratları
Məni bir sözümdən duyan, hardasan?

Qulağım müntəzir sənin zənginə,
Rəhm elə sevgilim sən bu söngünə.
Şadlığı, şənliyi qoşub, sevginə,
Evimə, çölümə yayan, hardasan?

Hayınla, küyünlə gəl aç qapımı,
Sorğuyla, sualla çağır adımı,
Gəl ey sevimli yar, qur büstamı,
Gəl ey özgəsinə uyan, hardasan?

## QADAN ALIM

Gözlər danışanda acizdir sözlər,
Gözdən uzaqdasan din, qadan alım,
Gördüyüm yuxular əzabı izlər,
Deyəsən olacaq çin, qadan alım.

Gülüstan könlümə xar ayaq açdı,
Bülbül avazıma sar ayaq açdı,
Gecələr yerimə qor ayaq açdı,
Qaraldı gözümdə gün, qadan alım.

Eşqim xəyanətə büküldü getdi,
Həsrətim göz suyu, töküldü getdi,
Xəyalın yadımdan çəkildi getdi,
Gümanlar kül oldu dün, qadan alım.

Məni sındırmağa necə qıydın sən?
Niyə özgəsinə gedib, uydun sən?
Xəyal özgə imiş, demə buydun sən.
Inlədim boğazda ün, qadan alım.

## AXDI GETDİ

Od idi, oda saldı,
Od sevdim, o da saldı.
Mən yar deyib, alışdım,
Yar oddan oda saldı.

Yar aldatdı, yar atdı,
Mən piyada, yar atdı.
Bir nəğməkar quş idim,
Məndən bayquş yaratdı.

Yar getdi. Baxdı getdi,
Könlümü yaxdı getdi,
Yar gözümün nuruydu,
Gözümdən axdı getdi.

## QOVĞAYA SALDI

Arif bilib, vurğun oldum,
Hər sınağa saldı məni,
Həsrətindən məcnun oldun,
Günüm qeylü qaldı mənim.

Gözəllikdə misli yoxdu,
Sinə dolu, gözlər toxdu.
Hər kəlməsi könül yaxdı,
Hər baxışı çaldı məni.

Vuruldum, günahkar oldum,
Gizli eşqi aşkar oldum.
Vaxt gələndə lal-kar oldu,
Min qovğaya saldı məni.

## ŞAH VARAĞIMSAN

Hara baxıramsa, görürəm səni,
Harda susmuşamsa, səninləyəm mən.
Göylərdən könlümə yağan qüssəni,
Heç vaxt mən səninlə bölməyəcəyəm.

Yatıb, yuxularda axtaracağam,
Ayılıb, yanımda görəydim səni,
Başımı yastığa tək qoyacağam,
Axan göz yaşımı silməyəcəyəm.

Sən mənim ruhumun doğması, canı,
Olan ümidimin ən parlağısan.
Səni axtarmışam gəzib dünyanı,
Yazılı könlümün şah varağısan.

## XƏYALLARIM ÇİN OLARMI?

Tək oturub, səni anam,
Həzin-həzin oda yanam.
Sən gələn yola boylanam.
Xəyallarım çin olarmı?

Gözüm yaşı selə dönə,
Həsrət daşı külə dönə,
Bu lal dilim elə dinə,
Xəyallarım çin olarmı?

Qulağıma gələ səsin,
Titrədə məni nəfəsin,
Baxam sənə əsim-əsim,
Xəyallarım çin olarmı?

Gümanıma ümid gülə,
Qaranlığa nur tökülə,
Sənsizliyi bilə-bilə,
Xəyallarım çin olarmı?

## İNDİ SƏNƏ ÇATMIR ƏLİM

Yuxum kimi dərin idin,
Həyat kimi şirin idin,
Bəmim idin, zilim idin,
Indi sənə çatmır əlim.

Mənim əziz günüm idin,
Tanrım idin, dinim idin,
Xatirələr sərin-sərin,
Indi sənə çatmır əlim.

Sən ətirli gülüm idin,
Sənsiz olsam, zülüm idim,
Sən ki öz sevgilim idin,
Indi sənə çatmır əlim.

Xatirələr düzüm-düzüm,
Bumbuz olub, əlim-üzüm,
Yandırsa da sənsizliyin,
Indi sənə çatmır əlim.

## QORXU

Srğollaşıb gedəndə sən hər zaman küsürsən,
Küsəndə bilirsən ki, ürəyimi üzürsən.
Məndən küsmək sənünçün sanki hər işdən asan,
Mən küsməyə qorxuram, gedərsən qayıtmazsan.

## TƏKİ

Küləklər qəddimi qoy əysin mənim.
Nə ruhdan düşərəm, nə yıxılaram.
Təki mən bəyənən bəyənsin məni,
Bir kol dibindəcə, mən yuxularam.

## QƏRİBLİK

Dünya bir bağ idi, bağbanı da mən,
Bağdakı ağaclar mənimkilərdir.
Hər gün sevə-sevə o meyvələrdən
Gözüm bəyəndiiyin əlim seçərdi.

Gözəllik ki vardır, göz doya bilmir,
Nə qədər dolansan dağı, aranı,
Götürüb tingləri calaq eylədim,
Tumları oxşarı, ağı qaranı.

Gözəldən gözəllik çiçəyi açdı,
Gözlərdən ağaca çökdü məhəbbət.
Ağaca baxmağa çoxları qaçdı,
Meyvə öz vaxtında dəydi nəhayət.

Ağac şux durmuşdu min bir vüqarla,
Düzlükdə yox hüsnü, yox bərabəri.
Meyvəsindən dərib, yedim aramla,
Yaman ləzzətliydi onun bəhəri.

Üç ilə, dörd ilə, ağac qocaldı,
Peyvəndin ömrü uzun olmadı.
Yerli toxum gəzən, yerli ting gəzən,
Anama iradım, sözüm qalmadı.

## QOÇAQ DAYANAR

Bundan dəqiq zərbə kimsə vuranmaz,
Bundan da zəhərli ox ola bilməz.
Çırpına-çırpına can verirəm mən,
Dörd tərəf qaranlıq, kimsə görünməz.

Mərd deyib, arxamı söykədiiiyim dağ,
Elə dağıldı ki, düzündə qaldım.
Bir qurtum dilədim «bir cüt gözə» mən
Dinmədi, əllərim üzündə qaldı.

Özün öz yasını indi tut könül,
Gen gündə danışıb, gülməyə nə var?!
Əgər bacarırsan, darışlıqda gül,
Qoçun döyüşünə qoçaq dayanar.

## ÜŞÜTMƏ

Kim sənin qoynuna giribsə, bir an,
Dünyanın dadını sənlə görübdür.
Isti qucağında duyğularını,
Ləziz titrəyişlə, sənlə bölübdür.

Dodağın könlünə şərbət çiləyib,
Isti nəfəsinlə çimizdirmisən.
Çırpına-çırpına, xoş məhəbbətlə,
Titrək ləblərinlə əmizdirmisən.

…Ona bəxş etdiyin məhəbbət sirrin,
Indi alovuyla məni yandırır.
Onun qulağına axan sözlərin,
Könlümdə hikkəmi qıcıqlandırır.

O anlar yaşayır xəyallarımda…
Demə, bu qısqanclıq xəyal işidir.
Andıqca şerimin misralarında
Sənin qaynarlığın məni üşüdür.

## DÖRDLÜKLƏR

Hamıya günəş tək nur paylayanda,
Mənimçün şam kimi sən ərimisən.
Yaxşı ki, ömrünün kamil çağında,
Coşğun ürəyinlə məni sevmisən.

* * *

Daşqın olan vaxtda sellənər sular,
Bu da gözəllikdir, doyulmaz ürək.
Gündüz ilğım olar, gecə arzular
Bircə məhəbbətdən yorulmaz ürək.

* * *

Bir üzüm sevincdir, bir üzüm kədər,
Kədərsiz yaşamaq könlümə yaddır,
Bir üzüm gülüşdür, bir üzüm qəhər,
Ikisi bir yerdə tamdır həyatdır.

## QAYIT

Məhəbbət ağlasa könül evində,
Mənsiz xəyallara getmə, azarsan.
Çim paklıq naminə, gözüm selində,
Qayıt ürəyimə qayıt. Bacarsan…

## NECƏ QAÇSAN

*Ay dolandı il aşdı,*
*Bağım, bağcam gül açdı.*
*Yalvardım danışmadı,*
*Küsən kimi dil açdı.*

***El bayatısı.***

Bilirəm, tərs oğlu tərsinəsən sən,
Qaraqaş, qaragöz tər sinəsən sən.
Gəl dodaq-dodağa bir məclis quraq,
Ceyran gəlinlərin tərsi ilə sən.

Gecələr gözümə çıraq olmusan,
Gündüz gözlərimdən iraq olmusan,
Ceyransız çöllərə qonaq olmusan,
Tərsin sevgilisi tərsin oğlusan.

Nübar öpüşünün tamarzısıyam,
Ilk görüş gününün tamarzısıyam,
Hər necə qaçmışam çatmısan mənə,
Sən də necə qaçsan, tərsin qızıyam.

## XOŞ SÖZ

Könlümdə bir yaman sevgi odu var,
Zamanın yelləri döndərib közə.
Eşqim təslim olmaz, min fəryadı var
Məni yandıracaq dönəcək sözə.

Elə sevgilimdən söz istəmişdim.
Dünyanın varında olmayıb gözüm.
–Istəyin nədir nə? –Xoş söz – demişdim
O da axtarmaqdan tapmayıb dözüm.

Xoş söz arzusuyla həsrət çəkirəm,
Sevgilim o sözçün Ağrıya qalxar,
Bu elə çətin ki, özüm bilirəm,
Fərhad külünglə də bu işdən qorxar.

Sevgilim dözümdə Fərhaddan uca,
Əlinin altında yüz Kərəm yanar.
Mən ona nəğmələr desəm doyunca
O da zirvələrdən mənə boylanar.

## GÖZÜM AXTARIB SƏNİ

Cərgə-cərgə adamların içində,
Könlüm səni, gözüm səni gəzibdir.
Sənə bənzər sən boyda sən biçimdə,
Yaşıdların baxışımı sezibdir.

Bədənimdən uçan cansan elə bil
Uçub mənim ünvanımı bilmədin.
Elə mənə arxayınsan elə bil
Uzaq gəzib, bir üzümə gülmədin.

Axır səbrim aşar-daşar ağlaram,
Əvvəl axır gəlməlisən gəl, gülüm.
Həsrətinlə ürəyini dağlaram,
Gəlişindən qol açaram sevgilim.

## GÖRÜŞ

Görüşdük… Aramız bir addım oldu,
Şəklini gözümlə çəkib götürdüm.
Görüşün alovu köksümə doldu,
Vəsfini həsrətlə, ahla bitirdim.

Indi evimdəsən… düşüncəm və sən,
Birlikdə yatırıq, oyanırıq biz.
O günkü görüşün xatirəsindən,
Bir addım aralı, dayanırıq biz.

## YA DA

*Ah, bu qəfil görüş kaş olmayaydı.*
***T.Bayram.***

Susuz ciyərimə duz səpib, yenə,
Kirimiş könlümü odlara tutdun.
Elə ki, yenidən baxdım hüsnünə,
Dünyanı, cahanı təkrar unutdum.

Sənin tamaşana ürəyim dözməz,
Tuşlanmış baxışlar canımı yaxar,
Bu qısqanc hisslərə ağlım sevinməz,
Məni dağa-daşa salar qorxular.

Mənim şübhələrə əsaslarım var,
Yusif əllərinə su tökə bilməz.
Züleyxa Yusifi satar, unudar,
Sənə məhəbbətdən əl çəkə bilməz.

Yazığın da gəlmir inanıram mən,
Sən sakit gəzirsən, öldüm eşqidən.
Amandır, həll elə ya «o» ya da mən,
Yoxsa car çəkərəm xəyanətindən.

## SƏNDƏN KÜSƏ-KÜSƏ

Sənin həsrətindən əriyəcəyəm,
Sənin vüsalından kiriyəcəyəm,
Səninçün hey ölüb, diriləcəyəm,
Səndən küsə-küsə, küsə-küsə mən.

Sənin yollarına göz dikəcəyəm,
Sənin yollarına söz tökəcəyəm,
Bağrımın başından köz tökəcəyəm,
Səndən küsə-küsə, küsə-küsə mən.

Sənə harayımın səsi çatacaq,
Mənim alovumdan götür, çat ocaq,
Məni atəşinə yax qucaq-qucaq,
Səndən küsə-küsə, küsə-küsə mən.

## QAYIT YERİNƏ

Mənimçün hər şeyin öz yeri vardır,
Hər şey öz yerində xasiyyətimdir.
Sənə də könlümdə yer ayırmışam
Xəbərsiz getmisən mənə çətindir.

Nizamı pozmusan qaşqabağlıyam,
Gedib, qurşanmısan özgələrinə.
Qorxursan…? Görürüsən necə haqlıyam?
Gözümü yummuşam, qayıt yerinə.

## AH, KAŞ Kİ!

Miz dalında oturub, fikirlərə batasan,
Çağıram gecə keçir, bəlkə gəlib yatasan?
Sözlərə heyfin gələ, qaşlarını çatasan.
Onda həmayil olma, boğazına boynuna,
Qələmi yerə qoyub, qoşulasan oynuma.

## BİR DƏRİN GECƏDİR

Bir dərin gecədir, sükut içində,
Dörd divar qorxudan farağat durub.
Xəyallar ağrılar mir cür biçimdə,
Həsrətlər, istəklər boynunu burub.

Qırx damardan gələn arzular baxır.
Gecə kimə şirin kimə acıdır.
Könlüm nur kündəsi gözümdən axır,
Xumarlıq məhəbbət ehtiyacıdır.

Həmahəng duyğular çırpınıb yatır,
Sevgilim sevdalar nağıllarında.
Hisslərim yuxuda murada çatır.
Dodağım nəğməmin misralarında.

## DAHA

Daha mən zəngini gözləməyəcəm,
Sən də unut məni, at xəyalından.
Çəkdiyim ahları sözləməyəcəm,
Dərd də çəkməyəcəm, keç günahımdan.

Daha yolda izdə aramayacam,
Daha boynu bükük gəzəcəyəm mən.
Daha hər sözünə deməyəcəm – «can»,
Dada həmişəlik mən küsəcəyəm.

Daha xatirələr xatirdə yatar,
Daha güman qalmaz düşəm yadına.
Əzabdan bu könlüm tonqallar çatar,
Şöləsi «şan-şöhrət» saçar adına.

## KÖLGƏN İLƏ

Məni öz oduna alışdırmısan,
Çəkdiyim zəbanə daha bəsimdi.
Çırta-çırtla yanan oduma baxsan,
Görərsən bu yanğı Nəzakətindir.

Sənin kölgən ilə baxt güldürmüşəm,
Baxıb, seyr etmisən əzablarımı.
Yüz yol gülmüşəmsə, min yol ölmüşəm,
Haqq-hesab etmisən fəryadlarımı.

Mənim harayıma biganəsən sən,
Üzüm gülərsə də hökmüm ağırdır.
Bir dəfə demədim kimsən, nəçisən?
Demə əlacsızdı, demə fağırdı.

Gözümdən könlümə addımladın sən,
Bir doğru eşqinə, min yalan dedim.
Elə xumar idim cəsarətindən,
Sənin hər ahına min yol – «can» dedim.

Məni sınaqlara çəkdiyin bəsdir,
Mən hələ şüykəyəm, qırmaq çətindir.
Məni bü həyatda əyəcək qüvvə,
Yalnız saf eşqindi, məhəbbətindi.

## SƏN NECƏ DÖZDÜN?

Səndən ayrılalı üzüm gülmədi,
Gözümün suyunu əlim silmədi.
Ümüdüm yox oldu, güman gəlmədi,
Mən buna dözmədim, sən necə dözdün?

Göylərdən üstümə ahu-zar axdı,
Qaynar ürəyimi sazaqlar yaxdı,
Biganə üzümə eyhamla baxdı.
Mən buna dözmədim, sən necə dözdün?

Yolumu, izimi duman bürüdü,
Xəyal ilğım oldu, gendə yeridi,
Südüm isinmədi, mayam çürüdü,
Mən buna dözmədim, sən necə dözdün?

Dilinə gəlmədi bir dəfə adım,
Ay mənim sevgilim, ay mənim yadım,
Mənim göz yaşıma yaman susadın,
Mən buna dözmədim, sən necə dözdün?

## KÖNLÜNÜ QORU

Həsrətin əlindən almamış məni,
Hicranın çənginə saldın, itirdin.
Sənə bəxş etdiyim könül tarımı,
Ürəksiz daşlara çaldın, itirdin.

Qəlbə vurduğun daş, taleмə dəydi,
Qorxdum məhəbbətin baxışlarından.
Gözümün yaşları köksümü dəldi.
Məni seçkin etdi tay tuşlarımdan.

Qaçdıq, Ay-Gün kimi, bir-birimizdən,
Indi xatirələr bizi ovudur.
Gəl, muğayat olaq ürəyimizdən,
Ürək öz dostunu çətin unudur.

## YANARSAN

Ədalətdən danışanda dostların,
Zil səsini ürəyində qısarsan.
Çiçək açmaz arzuların, ilqarın,
«Sədaqət»in yada düşər, susarsan.

Uğur səndən uzaq qaçar, dayanmaz,
Düz yollarda döngələrə dəyərsən.
Duyğuların yad hisslərə inanmaz
Xatırlarsan, insan olsan əyər sən.

Dəsti-xəttin bu torpaqda, bu daşda,
Cığırında adım qalır, anarsan.
Hatəm mənəm bu zamanda, bu yaşda
Xəsis sənsən, xatırlayıb yanarsan.

## ÇIXDIM QİSMƏTİNƏ YERDƏN KÜP KİMİ

Sənin kölgən üçün bir tonqal çatdım,
Onu qorumadın əməllərində.
Nə sönməsin deyə, bir çırpı atdın,
Nə də ki, qızındın həndəvərində.

Şübhələr eşqini qovdu könlümdən,
Tələsib, zamandan çox qazanmısan,
Məndən yaxşısını uma-uma sən,
Indi də zamana, aldanılmısan.

Beş günlük kef üçün yar itirmisən,
Çəkdiyin ax-vaylar ahu-zar olar.
Kiçik istəklərin dalınca düşsən,
Məhv olar könlündə, böyük arzular.

## GƏLMƏDİ GƏLMƏDİ

Ev-eşiyi təmizlədim,
İlham gəlmədi, gəlmədi.
Sevdiyimi əzizlədim,
İlham gəlmədi, gəlmədi.
Qələm əlimdə gözlədim,
İlham gəlmədi, gəlmədi.
Gülbahara zəng elədim,
İlham gəlmədi, gəlmədi.
Cəmiləyə zəng elədim,
Məhsətini dəng elədim,
İlham gəlmədi, gəlmədi.
Dərdi-qəmi soraqladım,
Kitabları varaqladım,
Ağlı-başı yaraqladım,
İlham gəlmədi, gəlmədi.
Çık-çık saat ötdü bir-bir,
Fikirləşib tökdüm tədbir,
Yazılmadı bircə sətir.
İlham gəlmədi, gəlmədi.
Yarın hüsnü düşdü yada,
Saldı məni oddan oda,
İlhamı göndərdi xuda,
Yazdım gəlmədi, gəlmədi

## SƏNİ SEVƏNƏ YAZIQ

Gözlərin dikilər küçə boyunca,
Gah onu, gah bunu yenə ararsan,
Hər qadın dalınca sən boylandıqca,
Özünü məhv edib, yetir qalarsan.

Beynin təmizlənməz bir pud araqla.
Evinə gələndə əzizlənməzsən.
Sən elə çirkabda girdin gözümə,
Daha spirtlə də təmizlənməzsən.

Yolun üstündəki gül-çiçəklərə,
Eynəklə baxsan da, seçmiyəcəksən.
Min dəfə çimsən də Xəzər gölündə,
Büllur ürəyimdən keçmiyəcəksən.

## YIXMA KÖNLÜMÜ

Qəmdən ləbələb könlüm,
Hərdən səni anacaq.
Sənə bozbaş bişirən,
Mənə eşqin qalacaq.

Bir saz alıb əlimə,
Yana-yana çalaram.
Bir kövrək intizarla
Hərdən səni anaram.

«Əziziyəm üz qandı
Əyri qandı, düz qandı.
Ev yıxmaq bir qandısa,
Könül yıxmaq yüz qandı»

## O, YUXU İDİ

Sən mənim məhəbbət dənizim idin,
Üzürdüm bəxtəvər ləpələrində.
Mən sənin kəhrəba kənizin idim,
Xoşbəxtcə yaşardım ləpirlərində.

Günün batmasına qoşa baxardıq,
Seyrdən doymazdıq yeri göyü biz.
Arxası üstündə suda arardıq
Qoşa çırpınardı ürəklərimiz.

Əllərim çiynində sarı qum üstə,
Qumdan uzaqlara biz çiləyərdik.
Qoşa uzanardıq isti sahildə,
Birlikdə göz yumub, mürgüləyərdik.

Yer də bizimkiydi, dəniz də, göy də,
Fərəhdən qaçan da, üzən də bizdik.
Nə vaxt axşam düşdü, sahil boşaldı,
Nə görər, nə də ki, dərk eləməzdik.

Indi baxışımda tarix dayanıb,
Gözlərim yol çəkir, təklik əlindən.
Günün istisindən qollarım yanıb,
Sifətim nəmlənib xatirələrdən.

# *G Ö Y N Ə R T İ L Ə R*

## QARANLIQ

İşıqlar sönübdür küçə boyunca,
Qaranlıq bürüyüb, daşı divarı,
Yerlər qaranlığı içir doyunca,
Göylər seyrə dalıb, qaranlıqları.

Dünya qaranlığı göydən ələyir,
Qara nəfəs olub, yaşıl ağaclar.
Külək qaranlıqla irəliləyir,
Müdhiş nöqtələr tək donub, yamaclar.

Evlərdə işıqlar gecələyirlər,
Qara pəncərədən qaranlıq axır.
Qara gözlərimdə qara qorxular,
Qorzunc qaranlığa təlaşla baxır.

## BALALI CEYRAN

Nişangahda dayanıbsan,
Dörd yanına boylanıbsan,
Balalarını anıbsan,
Yana-yana yan a Ceyran,
Anan ölsün, can a Ceyran.

Ürəyin titrəyər sənin,
Dilin ağzın mələr sənin.
Ağlına nə gələr sənin?
Yana-yana yan, a Ceyran,
Anan ölsün can, a Ceyran.

Ovçun çox naşı çıxıbdır,
İşdən gec başı çıxıbdır,
Gözdən göz yaşı çıxıbdır,
Yana-yana yan, a Ceyran,
Anan ölsün can, a Ceyran.

## DEMƏ

Elə günlərim var ovunmamışam,
Ağlaya-ağlaya yatmışam ana.
Gecələr olub ki, soyunmamışam,
Dərdin dəryasına batmışam ana.

Günlər görmüşəm ki, il qədər keçib,
Mizrablar könlümdə yara açıbdır.
Sözlər eşitdim ki, ömrümdən keçib,
Yadıma düşəndə yuxum qaçıbdır.

Demə, ocağından uzaqda yandım,
Inan, bu öyüdü hər gün anıram.
Necə ki, mən səni oda salmışam,
Balamın çatdığı odda yanıram.

## YALANDI YALAN

Naz balışa baş qoyduğum,
Yarım yalandı, yalandı.
Xəyanətini duyduğum.
Ürək bulandı, bulandı.

Halalıma haram qatdın,
Məni özgəsinə satdın.
Bu həyatdan acı daddım,
Allah, amandı, amandı.

Namusunu itə atan,
Boğazacan çirkə batan.
Varsa, vicdanından utan,
Qalan yalandı, yalandı.

## QISQANIR MƏNİ

Bir dar ürəklinin arvadıyam mən,
Aldığım ilhama qısqanır məni.
Bütün şerləri evdə yazıram.
Məhəbbət misrama, qısqanır məni.

Qələmə, stola, gülə, darağa,
Sükuta, gülüşə, sözə, varağa.
Verlişə, kitaba, şer oxumağa,
Gördüyüm yuxuma, qısqanır məni.

Mənim sevincimdən ona qəm düşür,
Qısqanclıq dərdinə dəmbədəm düşür.
Günümüz savaşla, dərdlə ötüşür,
Boylanan ahıma, qısqanır məni.

Dərdimi deməyə adam tapmıram.
Bu odda qovrulub, gecə yatmıram,
Qohuma, qardaşa, yada satmıram,
Sızlayan yarama, qısqanır məni.

Qapımız bağlıdır qohuma, yada,
Ən dar ürəklidir, geniş dünyada,
Mən özüm-özümü salmışam oda.
Bu kor günahıma, qısqanır məni.

## YAXŞI Kİ, SABAHLAR ÖZLƏRİ GƏLİRİ

Yamanca tənhalıq hiss eləmişəm,
Nə yaman dəhşətmiş bu təklik aman.
Qışı da mən artıq, dərk eləmişəm,
Hələ ayrılmamış öz payızımdan.

Elə bil gözlərim təzəcə görür,
Bu sərt ayazları, bu sərt günləri.
Gözümün içində yaşlar titrəyir,
Qulağım çaldıqca, sərt hökmləri.

Elə bil, doğmalar dönüb, olub yad,
Könlümdə nəğmələr qana bulanıb.
Içimdə at çapır, haraysız fəryad,
Çölümdə dərdimə kədər calanıb.

Elə bil, gümanım azıbdır mənim,
Ümüdüm işıqsız küncə qısılıb.
Elə bil çatlayıb yazıq ürəyim,
Həyatım bir zəfər teldən asılıb.

Elə bil, elə bil, daha bilmirəm,
Qışın şaxtasında necə donacam.
Yaxşı ki, yaxşı ki, hələ bilmirəm,
Açılan sabahda mən də olacam.

## ATALAR SÖZÜNƏ

Bəlkəni əkənlər şənbəllə bitib,
Bağışla ay ata, qanmamışam mən.
Dediyin kəlmələr daşlardan keçib,
Cavan olduğumçün anmamışam mən.

Elə ilk görüşdən bəlkə, demişəm.
İlk sözüm lal olub, dilimdə qalıb.
Bağışla ay ata, səhv eyləmişəm,
Bəlkə, deyə-deyə xeyli aldanıb.

Görüşə tək getdim, cüt qayıdam mən,
Nə mən onu andım, nə də o andı.
Yolun yarısından döndüm ürəkdən,
Bağışla, ay ata, indi amandı.

Zərərin yarsı da, xeyirdi bəlkə,
Yox, yox, bəlkəsizdən qərarım indi.
Qoyduğun sözləri saldıqca dərkə,
Sabahkı şərə də könlüm sevindi.

## AĞ KAĞIZA DEDİM

*Aranın göz yaşı çatmaz*
*Qoy ağlasın dağlar mənə.*
***H.Arif.***

Bir nadanın pəncəsində boğuldum,
Harayımdan bağrım başı çatladı.
Qışqırmadım, nərə çəkib bağırdım
Min heyf ki, bir kimsəmə çatmadı.

Məzarıstan bildim evi, eşiyi,
Sirr sözümü, ağ kağıza dedim mən.
Inkir-minkir sandım olan keşiyi
Çörəyimi göz yaşımla yedim mən.

Arzu etdim, ayaqyalın qaçım mən,
Ciyərparam inləsə də, dönməyim.
Qışın oğlan çağı evdən qaçdım ki,
Bu namərdin hiyləsində ölməyim.

## GEDİRƏM

*Sonuncu ümidə əlvida deyib,*
*Sonuncu gümanı çırpıb, gedirəm.*

Bir az ucuz deyə ölüm axtardım,
O da qaçıb çıxdı ceyran dalına.
Axtara-axtara yanıb odlandım,
Mən nəzər saldıqca öz əhvalıma.

Gündə bir şeyimi atdım, itirdim,
Təkcə ümidlərim mənlə yaşadı.
Çox şeyi ağlıma hər gün gətirdim,
Mənə ağıl qaldı, bu nə dünyadır?!

Ölüm də sevirmiş baha qiyməti,
Mənsə öz ömrümü vermişəm yelə.
Şükür, dərk eylədim bu nəhayəti,
Ya boğul, ya da ki, çırpıl sahilə.

## HAQQ NAZİLƏR ÜZÜLMƏZ

Günlər bir-birinə bənzəyən kimi,
Fəsillər, aylar da oxşar olurlar.
Seçilən günlərlə, seçkin ayları,
Demirəm, oxşarlar unudarlar.

Mən də oxşarlığı sevmədim nədən?
Özümə bənzəmək istədim hər an.
Güləndə gülmüşəm ancaq ürəkdən,
Ağlar gözlərimdən özüm qorxmuşam.

Gecəsi-gündüzü var bu həyatın,
Gecələr ovunub, səhər qanmışam.
Inana-inana saf həqiqətə,
Gündə neçə dəfə, mən aldanmışam.

Aldana-aldana gecikirəm mən,
Böyük əməllərin doğru yoluna.
Gündə neçə dəfə güzəşt edirəm,
İnanam mən haqqın var olduğuna.

## QORXMA

Qorxma, mən yatanda gec oyanıram,
Mənim durmağımdan xof eləmə sən.
Elə duranda da kor dayanıram,
Kaş kar da olaydım, həzin səsindən.

Mənim yatışımda nə axtarırsan?
Varımı, yoxumu itirmisən sən.
Niyə qorxa-qorxa gizli baxırsan?
Aşkara min əzab gətirmisən sən.

Ayağın ucunda gəzirsən hələ,
Mən çoxdan yatmışam fil qulağında.
Yanımdan keçirsən belədən belə,
Nəsə düzəldirsən son saatında.

Evimin istisin aparmışdın sən,
Gələndə lal sükut, gətirmək üçün.
Dümdüz yolundan da saparmışsan sən.
Yarımçıq sevdanı bitirmək üçün.

## ZƏNCİR SƏDAQƏTİ

Mən itin deyiləm zəncirləyəsən,
Quşun da deyiləm qəfəsdə qalam.
Qulluqçun deyiləm hədələyəsən,
Qulun da deyiləm qaçıb, qurtulam.

Mən insan övladı azad qadınam,
Zəncir sədaqəti dilimə məndən.
Bilirəm hər yerdə sənin adınam,
Sən də şübhələnmə sədaqətimdən.

Oğlum var boyuna bərabər olub,
Qızım var, evlərə gəlin köçəsi.
Sənin tənələrin məni lap yorub,
Canımı alıbdır, səsin hədəsi.

Mən qadın olsam da ürəyim geniş,
Mənim niyyətlərim gün tək əzizdir.
Məni yaşadan da ayaqladan da
Illər sınaqlısı saf eşqimizdir.

## SƏADƏT DEYİL

Qarşında bir yol var, gərək gedəsən,
Bilmirəm tapacaq, itirəcəksən.
Xəyalın göylərdə, ümüdin yaxın,
Deyirsən cah-cəlal gətirəcəksən.

Var-dövlət xoşbəxtlik, səadət deyil,
Sən bu həqiqətə əyil və əyil.
Axtarıb dəm-dəsgah güman taparsan,
Olan səadəti itirəcəksən.

Ürək bircə dəfə vurular inan,
Ilk bəxtdən bəllidir yanan-yarıyan.
Ay məni həyatdan geridə qoyan,
Məni dəli edib, itirəcəksən.

Özgə dağlarında güllər özgədir,
Baxışlar özgədir, dillər özgədir.
Çiçəklər könlünü məst etməyəcək,
Doğmalıq hissləri görməyəcəksən.

Inan, özgəsinə, könül verərsən,
Verəndə qiymətin bilinməyəcək.
Mənim üstümdəki hakimiyyətin,
Daha özünə də görünməyəcək.

Dünyanın dəstgahı lax yumurtadır,
Nə ola, sən onu tezcə dadasan.
Zər-ziba içində bədbəxt, pərişan,
Neçə gecələri zəlil yatasan.

Əllərin uzansın səadətlərə,
Yanan işıqlarda qap-qaralasan.
Itirib ən əziz xoşbəxtliyini,
Könlü hıçqırıqlı məni anasan.

## TAMAHKAR

Tamahı ağlından iti olana,
Yalançı doğrudan balta çalacaq.
Dünyanın malını alıb, yığana,
Dünyadan beş metr parça qalacaq.

## QİSMƏTİM

Əzab ver, əzablar qismətim olub,
Dinməyib, abrımı qorumuşam mən.
Önündə lal durmaq ismətim olub,
Sənin işgəncəndən «yarımışam» mən.

Elə hər işimdən narazı qaldın,
Tumar da çəkəndə sərt baxdın mənə.
Mən gənc olanda da belə zalımdın,
Onda da dözürdüm mən işgəncənə.

Elə deyinməkdi iş gücün sənin,
Oğlumu, qızımı salmırsan heçə.
Elə hey deyirəm yenə dinməyim,
Kar kimi baxıram mən kirimişcə.

Heç kəsi vecinə almırsan daha,
Elə bil, bağdadlı kor Xəlifəsən.
Səni and verirəm o bir Allaha,
Ömrümü bu qədər çürütməyəsən.

Şirin dilin olsun, xoş üzün olsun,
Acılıq səni də zəhərləyəcək.
Xoşbəxtlik həmişə qismətin olsun,
Hər kəs səpdiyini özü dərəcək.

## UYUDUM MƏHƏBBƏTİN LAYLA YUXULARINDA UYUDUM.. BAYATILAR ÖMRƏ GƏLƏNƏ KİMİ.

Bu həyatın mərdi mən,
Namərdi sən, mərdi mən.
Zəmanə vuruşdurdu,
Namərdləri mərdinən.

* * *

Əzizinəm dərdi kəm,
Bol basdırıb, dərdi kəm,
Ürəyim qan ağladı,
Görən dedi dərdi kəm.

* * *

Nəzakətəm həzinəm,
Ürəyi qəm, gözü nəm.
Könüldən oxlanmışam,
Heyim yoxdu gəzinəm.

## ÜMİDLƏR...

Başımdan çən qalxar, duman çəkilər,
Gözüm üfüqləri dağa diriyər,
Qəlbimə əzabdan ağırlıq çökər,
Göz yaşım üzümdən axar, əriyər.

Özgə gülüşlərə qısqanaram mən,
Uşaqdaq aralı, evdən aralı.
Elə göz yaşlarım axar üzümdən,
Xəyalım yaralı, könlüm yaralı.

Özüm də bilmərəm istəyim nədir?!
Əlimi hər yerdən kəsik görərəm.
Baxıb, saçlarımın qaralığına,
Bahar buludu tək mən hönkürərəm.

Könül ağrısından gecəm uzanar,
Səhərlər yalançı gülüşlə gələr.
Təklikdə könlümə ayaz sızanar,
Sözümdən sovumdan həsrət tökülər.

Bənövşə sayağı boyun bükərəm,
İllərin həsrəti boyumu əyər.
Axır ümüdləri mən göz dikərəm,
Ümüdlər qurd olub, ömrümü yeyər.

## SÜKUT

Lal sükutdan üzülüb ürəyim
Əriyib hissim, duyğum, məhəbbətim.
Sükutdan gəlmədi heç bir köməyim,
Batdı sükutun lallığında cürətim.

Sükut batıranı okeanlar yox edə bilməz,
Sükutun ucu bucağı gözlə görünməz.
Sükut içindəyəm, üzüm çənli, dumanlı,
Xoşbəxtliklə sükut bir yerdə görünməz.

Bu sükut əridib yox edəcək məni,
Siləcək yer üzündən bilirəm.
Sükuta qarşı çıxmağa yox taqətim,
Sükut aldı əlimdən getdi, məhəbbətim.

Yaxın gələcəkdə daha çox sükuta bürünəcəyəm,
Geyib sükut paltarımı, səssizliyə sürünəcəyəm.
Sükut evimdə oturub, düşünəcəyəm,
Sükut içində eşqimi dəfn edəcəyəm.

O eşqi ki, mənə yalnız dərd gətirdi,
O eşqi ki, üzümü güldürmədi.
Həyatdan umacağım xoşbəxliyi,
Məhəbbətim mənə vermədi.

Indi qalıb iki odun arasında,
Ağlamaqdan yorulmuram, usanmıram.
Illər külümü sovurub göylərə,
Daha ürəkdən də yanmıram.

Beləcə sükut toranlığında,
Kimisə hər gün gözləyirəm.
Gözləyə-gözləyə sükut adlı,
Bir yoxluğa qərq olacağam,
Beləcə sönüb, qocalacağam.
O günə hazırlaşıram, sükutlu o günə,
Həzinlik mehi dağıtsın saçımı üzümə,
Qara torpaq məni qovuşdursun lallığa,
Sükutun əbədi məskəni qəbristanlığa.

## DOLMUŞ BULUDA BƏNZƏYİRƏM

Dolmuş buluda bənzəyirəm,
Bulud dolanda qaralır yer, göy.
Qara bulud sükuta qərq olur,
Silkələnir, təzədən dolur-dolur.

Çox keçmədən hönkürür ahla-harayla,
Nisgilli gözləri boşalır ah vayla.
Axır gözlərindən dərdi-kədəri,
Azalır qəminin qədəri.

Buluda bənzəyirəm, bulud boşalanda,
Mən də yüngülləşirəm bulud kimi.
Bulud boşalanda parçalanır,
Bölünür dərdi bir neçə yerə,
Dağılır tala-tala, sərhədsiz göylərə.

Mən buluda bənzəyirəm...
Dərdin çoxluğundan sükuta dalıram,
Bulud sayağı doluram, doluram.
Sonra bütün varlığımla hönkürüb,
Kinimi göz yaşımla yuyuram.

## FİTNƏSİ VAR

Acı xatirələr dilsiz yolları,
Ağrılı dil ilə qarğışa bükür.
Burun pərələrim açılır yarı,
Üzümə gözlərim göz yaşı tökür.

Dözmədim dünyanın min hiyləsinə,
Maşınla gedərkən aydınlığa mən.
Bədbəxtlər. Yazıqlar düşünüb həmən,
Göz yaşı axıtdım qadınlığa mən.

Mərkəzdən aralı getdikcə yolu,
Duydum duyğularım tapdalanıblar.
Çəkilib dünyanın səssizliyinə
Ərimlə birlikdə məni anıblar.
Yol üstə xudmani bir kababxana...
Əziz qonaq – deyə alıb, qoynna.
Tüllər arasından oranı görüb,
Vəhşiyə çevrildim, alım boynuma.

Seyr edib, dözmədim bol qəşəngliyə,
Bilmədim dağ-düzün günahı nədir ?
Daldıqca laciverd dəniz seyrinə,
Üçüncülər haqda söyləndim bir-bir.
Ərimin dediyi hər cür sözlərə,
Hazırdım əzəldən, inanam candan.
Bu geniş düzlərə cığır deyərək,
Məni aldatmışdı həmin o andan.

Yolları otuzdan tez getmək olmur,
Demişdi, indisə 80-lə, 100-lə,
Sürəti jiqulinin heç hiss olunmur,
O görüş yerinə sürür sürətlə.

Ürəyim gözəllik seyrinə dözmür,
Havası çatmayır bu genişlikdə.
Sanki ərim üçün yasaq deyilmiş,
Bir özgə qadınla bu kölgəlikdə..

Bu uzaq yollarda üzüldü ürək,
Ərim danışdıqca öz faydasına.
Mənim şivənimdən nəşələnərək,
Rişxəndlər edirdi o dəm yasıma.
...Mənə zülm etməklə tanınacaqsan,
Xəcalət içində batsın ad-sanın.
Zülmkar olsan da, sən yanacaqsan,
Min cür fitnəsi var, var bu dünyanın.

## HƏLƏ GÖRMÜRƏM

Tanrıma bir ömür borcum var mənim,
Hələ nə yaşaya, nə ölə billəm.
Ölməyə qorxuram, bumbuzdu qəbrim,
Təzədən əyilsəm, boy verə bilməm.
Üstümdən ağırlıq götürüləcək,
Beş günə, on günə intizardayam.
Anam yuxusunu qarışdıracaq,
Biləcək çətindir, dar ayağdayam.

Ağacda yarpaqlar azalacaqdır,
Payız öz ömrünü qışa verəcək.
Qohumlar göz yaşı axıdacaqlar,
Doğmalar pərişan gəzib, gələcək.

Bir oğlum, bir qızım anasız olar,
Baxıb, xumar-xumar dərk eləməzlər.
Üstünə analaq səsi ucalar,
Xiffətdə gecələr mürgüləməzlər.

Əlləri uzanmaz atasına da,
Evində evsiz tək gəzər balalar.
Mən uzaq qaçsam da, bu haraylardan,
Çırpınar ürəyim, alovsuz yanar.

Hələ neçə həsrət qırılacaqdır,
Bir əzab içindən çıxana qədər.
Hələ çox ağaclar saralacaqdır,
Mən bir namərdliyi yıxana qədər.

Gələcək üstümə qəm calayacaq,
Keçmişin dərdləri əriyəcəkmi?
Bəlkə gələcəyim mənim anacaq?!
Indidən sabahlar görünəcəkmi?
Hələ suallara cavablarım yox,
Hələ cavablarda əzab gəzmirəm.
Hələ bir canımın əzabındayam,
Hələ min əzabı görüb, sezmirəm.

## YENƏ?

Mən aydın, sən sirli,
Sən donmuş, mən tərli.
Məndə şad ürək var,
Səndə kədərli.
Gecə və gündüz tək,
Yenə ömr edək?

## BOYUMU ƏYƏR

*Nə yaxşı ömürlük aldanmamışam.*
***N.Kəsəmənli.***

Doğma ocağımı tərk edəcəyəm,
Oğlumu, qızımı gizləyin məndən.
Dolmuş buludlar tək hönkürəcəyəm,
Təbəssüm yuyular bənizlərindən.

Qaçaram bir əzab məngənəsindən,
Düşərəm kədər-qəm genişliyinə,
Üşüyüb həsrətin zümzüməsindən,
Acılar yağdırram dönüklüyünə.

Əyilmək boyumu aşağı əyər,
Düz də dayanmağa qamətim qalmaz.
Keçmişə qayıdan olubmu məyər?
Sabaha gedənlər yolda dayanmaz.

## ALIŞIRAM MƏN

Hələ, ölümsüzlük ocağındayam,
Hələ, intizarlar qucağındayam.
Hələ, yuxudayam ya əfsundayam,
Hələ, bilməməyə alışıram mən.

Hələ, bilmədiyim sözlər gəzirəm,
Hələ, bildiklərim dərdə dözürəm.
Hələ, ürəyimi özüm üzürəm,
Hələ, gülməməyə alışıram mən.

Hələ, gecələr tək yolum qaradır,
Hələ, ümidlərim dörd divaradr.
Hələ, oxlar batan yerim yaradır,
Hələ, inləməyə alışıram mən.

Hələ, öz-özümə ağı deyirəm,
Hələ, balalara yağı deyirəm,
Ömrümə cavanlıq çağı deyirəm
Hələ, dinləməyə alışaram mən.

Hələ, bu sükütün özü də ağır,
Hələ, bu sükutdan azablar yağır.
Hələ, ağlayıram mən fağır-fağır,
Hələ, ölməməyə alışıram mən.

## QAYIDANDA

Bir ömürlük güzəşt etdim,
Haqqım sayım getdi bada.
Xəyallara sərbəst getdim
Qayıdanda düşdüm oda.

Hər daşımda ahu-zarım,
Hər əşyamda qubar qaldı.
Bütöv qalan arzularım,
Azacıq da ömrüm vardı.

## HÖKMRANLIQ QURTARDI

Sən qazandın, mən aldım,
Mən düzəltdim, sən çaldın,
Qaldırırdım alçaldın,
Tale neyləsin buna?!

Mən oxudum dinlədin,
Mən yoruldum, inlədin.
Qiymətimi bilmədin,
Tale neyləsin buna?!

Səadətdən pay olmaz,
Hər cüt gəzən tay olmaz,
Hər qışqırıq vay olmaz.
Tale neyləsin buna?!

Nəyim varsa al, sənin,
Evi verdim qal, sənin,
Əşya sənin, yal sənin,
Tale neyləsin buna?!

Yollar uzun, zaman saz,
Halaladan könül doymaz.
Ay yad qızına uymaz,
Tale neyləsin buna?!

Yığdığımız bölündü,
Ədalətin göründü.
Səndəkilər elindi,
Tale neyləsin buna?!
Hökmün gəldi, haxladı,
Zər dirəklər laxladı.
Xatirələr başladı,
Tale neyləsin buna?!

## AD GÜNÜ

Yaş üstünə yaşım gəldi,
Yüküm oldu, illər mənim.
Bulud doldu, qışım gəldi.
Bəndə saldı, sellər məni.

Gül ömrümü başa vurdum,
Indi bağban bellər məni.
Ilk oxumu daşa vurdum,
Xəcil etdi, dillər məni.

Dama-dama su daş dəldi,
Çaşdırdı hay-küylər məni,
Hər ildən pay, bir yaş gəldi,
Borclu etdi tellər məni.

Üfüqlərdən bir dan kimi
Gənclik keçdi, neylər məni?
Ad günümdə hicran kimi,
İllər peşman eylər məni.

## SEVDİYİM GÜNDƏN

İtirməyə alışdım,
Sevdiyim gündən bəri.
Ancaq möhkəm saxladım
Könlümdə pöhrələri.

Səsimdən zil alındı,
Boğazda qaldı bəmim,
Qəlbimdə ud çalındı.
Zarıldadıqca qəmim.

Axşamın əzabından,
Göz yaşı ilə qaçdım.
Sabahın ümidilə,
Gümanlarda dolaşdım.

Qar üstəki quş kimi
Azadam, bəxtəvərəm
Əslinin alovunda
Tüstülənən Kərəməm.

## İSTƏMƏDƏN

Hər gün ölümün gözünə baxa-baxa,
Sonsuzluğa, yoxluğa tələsirəm.
Hər gün min əzaba bata-çıxa,
Qaçmaq istərkən yorulub, əsirəm.

Ürəyimin aramsız döyüntülərində,
Sevgimi əzablarımla boğmaq istəyirəm.
Könlümün nagahani üzüntülərində,
Çırpınıb, boğulmaq istəyirəm.

Yox-yox, istəklərim yorğun, halsız,
Gündə bir az da, yol gedirəm.
Fağır köçkünlər kimi ünvansız
Fəqət, mən də gedirəm istəmədən.

## ATA YURDUNDA

Mənim tay-tuşlarım gediblər burdan,
Həyətdə bacada xatirə qalıb.
Min cür qubar qalxır daşdan, divardan
Qalan yaddaşımdan onlar ucalıb.

Hara dönürəmsə, tarixə dönüb,
Kimi görürəmsə, məndən uzaqdır.
Məndən çox qocalar xeyli var ölüb,
Məndən də cavanlar xeyli uşaqdır.

İndi uşaqlara xala olmuşam,
Elə bil dünəndi körpə çağlarım.
Yaşıdlar uzaqda mən tək qalmışam,
Yoxdur üaxınlıqda dostum, ağlarım.

Gəldim dərd-qəmimi dağıdam bir az,
Dərdimə təptəzə dərdlər calandı.
Taledən şikayət mənə yaramaz,
Şükür qardaşlarım mərddi, cavandı.

Onca gün mən qonaq qaldım vətəndə,
Qardaşlar-bacılar qonaq saxladı.
«Dərdli söylənərmiş» mən də dinəndə,
Doğmalar «can» deyib xeyli ağladı.

Doğma şəhərimə, iş yerimə mən,
Sağ gedib, salamat dönmüşəm daha.
Nəyim var dəyişib, bircə sağlığa,
Yenə də şükürlər etdim Allaha.

## DEYƏSƏN

Deyəsən həyatım qırılacaqdır,
Deyəsən əcəlim düşüb dalıma.
Əzrayıl yollarda yorulacaqdır,
İnanıb verdiyim cavablarıma.

Yalanla dünyanı mən gəzəcəyəm,
Qayıtmaq nə qədər müşkülləşəcək.
Tinləri görəndə üzüləcəyəm,
Atdığın addımlar mətinləşəcək.

Dünyada gördüyüm qazancım olar,
Haqq-nahaq sözlərdən fikir tikərəm.
Olsa şerlərim saxlancım olar,
Nəhayət ilişib, boyun bükərəm.

## BACARMADIM

Sən könül yerinə təsilli aldın,
Mən də xəcalətdən müti olmuşam.
Sevginin odunda yanıb, qocaldın,
Mən də vahimədən mat dayanmışam.

Yanar ürəyində donum sınmadı,
Ağlar gözlərindən nəm qaldı mənə.
Bağışla könlünü könlüm anmadı,
Pərişan saçından qəm qaldı mənə.

Susuz dodaqların dərya gəzmişdi.
Sən doldun eşqidən, mən boşalmadım.
Bağışla, min dəfə bağışla məni.
Könülsüz sevməyi mən bacarmadım.

## BƏS NİYƏ?

*Özünə oxşadıb tale təkliyi*
*Hər yoldan ötənə etibar etməz.*
***M.İsmayıl.***

Bəs niyə mən belə xoşbəxtəm axı?
Ayrılıb ömürlük yaxınlarmdan.
Mən necə görmüşəm gələn sabahı,
Məəttəl boylanan çilçırağımdan?

Bəs niyə mən belə xoşbəxtəm axı?
Bu sakit otağın səssizliyində.
Yoxsa, itirmişəm dərdi-günahı,
Var-dövlət, yoxsulluq qəmsizliyində?

Bəs niyə mən belə xoşbəxtəm axı?
Bir saat, bir də mən tənha deyiləm.
Mənim keçmişimi qaytar ilahi,
Orda göz yaşlarım axıb bir aləm.

## ZƏRƏRİN YARSI

*Ər evinə vida günü yetişdi,*
*Ağlama, ceyran balası ağlama.*
***N.Kəsəmənli.***

Göz yaşı, ahım ilə gəncliyimi verdim bada,
Ömrümün tən yarısı yoxdur daha bu dünyada.
Ayırıb ürəyimin saf tikəsin çürütmüşəm,
Gözümün qarasını yanağımda əritmişəm.
Qara saçlarım indi dən tökməyə müntəzirdir,
Şaqrar gülüşlərim yox, səs-küyüm də çox həzindir.
Atalar gözəl deyib, peşmanlığın yox faydası,
Zərərin yarsı qalıb, budur işimin qaydası.

## DÖRDLÜKLƏR

Telefon səsinə yadırğamışam,
Doğmalar üzümdən aralanıbdır.
Eşqinin oduna elə yanmışam,
Odundan nəğmələr saralanıbdır.

* * *

Könlümün yara yerisən,
Bağrımın qara yerisən,
Yaşayırsan yaddaşımda.
Gedirsən hara yerisəm.

# *T Ə S Ə L L İ L Ə R*

## TƏSƏLLİ

Gözaltı baxdın sən qıza, gəlinə,
Könlün sevdiyinə tay tapanmadın.
Düşdün dost evinə, qardaş evinə,
Ac, küskün qəlbinə, pay tapanmadın.

## ZƏHMƏTİM NAMİNƏ

Sağ ollar səpilir gül çiçəklər tək,
Keçmiş ağrılarım çıxır canımdan.
Ümüdim üzümə baxır gülərək,
Çıxdıqca həyatın hər sınağından.

Keçmişdən bu günü anıb, qalmışam,
Illər gözlərimə tutmayıb pərdə.
Zəhmətim naminə maaş almışam,
Başım əyilmədən heç bir namərdə.

## HEYIF...

Novruzdu, bayram idi.
Onda kənddə qalırdım.
Həmin gün beş-on evə,
Gizli dəsmal salırdım.

Bayram yumurtaları,
Ağlı-qırmızı idi.
Ondakı xatirələr
Qayğısız bir qız idi.

Böyüdüm, dəsmal atmaq,
Bir az, ar gəldi mənə
Getdim qulaq asdıya.
Qismət, yar gəldi mənə.

Qismətdən yarımadım,
Arzularım qarıdı.
Heyif ötən günlərə,
Orda bir qız var idi..

## SƏN BƏXTİMƏ ÇIXMADIN

Min heyif ki, sən bəxtimə çıxmadın,
Yazıq bəxtim qara daşa tuş oldu.
Naşı oldum, dörd tərəfə baxmadım,
Ağlar könlüm gülgün kimi nuş oldu.

Kabab kimi sızıldadım qış, bahar,
Ürəyimin ocağında közlədim.
Oğurladı illərimi divarlar,
Gəncliyimdən ayrılanda sezmədim.

Ümid yerim şer oldu söz oldu,
Kipriyimi islağında buzladım.
Sinəm üstü tüstülənib, köz oldu,
Gənclik ikən, həyatda payızladım.

Min heyf ki, sən bəxtimə çıxmadın,
Könlüm evi, viran qaldı suzundan.
Sən bəxtimə çıxan yollar qaraldı,
Mən də dondum, qaranlığın buzundan.

## İSTƏYİRƏM

Bir oğul istəyirəm mərd ola,
Kişini qadından seçə bilə.
Bir oğul istəyirəm comərd ola,
Cibinin xeyrindən keçə bilə.

Qardaş istəyirəm sədaqətli,
Haqqa, nahaqqa düz baxa,
Vətəndaş istəyirəm hörmətli,
Ədalətsizlikdən qorxa.

Əmi, dayı, istəyirəm qüdrətli,
Namərd sifətinə sillə vura,
Qanun istəyirəm əzəmətli,
Nahaq zəncirləri qıra.

Ocaq istəyirəm daş qoyam,
Hünərim, zəhmətim düzlük ola.
Qazan istəyirəm aş qoyam,
Düyüsü-qarası təmizlik ola.

## SEVMİŞƏM

Hamı kimi yaşamaqdan usandım,
Hamı kimi düşünməyi sevmişəm.
Dünya yükü daşımaqdan usandım,
Təkcə qalıb, üşünməyi sevmişəm.

Özüm kimi qəribəlik düşkünü,
Talem kimi taleləri müşkülü.
Xəyallarla mürgüləyən eşqimi,
Hərdən də bir küsüşməyi sevmişəm.

Dost tanışı el içində anmışam,
Yollar uzun, heydən düşüb, qanmışam,
Can cəhənnəm, mən adıma yanmışam,
Təmizlikdə sezilməyi sevmişəm.

Kitab, qələm həyatımdır, həmdəmim,
Şer, nəğmə, həm sevincim, həm qəmim.
Iki yerə bölünəndən vətənim,
Bir ad üçün, üzülməyi sevmişəm.

## SÖZ AXTARIRAM

Maraqlar istəklər çeşid-çeşiddir,
Həvəslər, həsrətlər neçə ünvanlı.
Adam var gəzdiyi ancaq ümüddir,
Adam var qarnı tox, başı planlı.

Mənim həyatımda söz çatmır ancaq,
Gecəli-gündüzlü söz axtarıram.
Gəzdiyim həmin söz, nə vaxt olacaq,
Kitabdan qəzetdən soraqlayıram.

Hərdən oxşarına ilişir gözüm,
Oxşarlar üzümü güldürə bilmir.
Axtara-axtara çoxalır sözüm
Onlar istəyimi bildirə bilmir.

Ömrümdə çatmayan bir söz var mənim
Inaddım dalımda dayaq olacaq.
Dünyanı tutsa da, söz nəğmələrim
Ağlım həmi sözü hey axtaracaq.

## ŞERİN DOĞUMU

Şer yazmaq istəyirəm,
Adi halımda.
Sözlər, hisslər.duyğular
Öz əhvalımda.
Nə həyəcan, nə sükut var.
Mürgülüdü ağıl və duyğular
Hər parçadan paltar,
Hər rəngdən olmaz boya.
Şerin də öz qanunu var,
Şəhdindən gərək könül doya.

Yox, orta halda şer yaranmaz.
Şer ya kefdən, ya dərddən,
Ya çətin zəhmətdən.
Ya acı həqiqətdən,
Ya odlu məhəbbətdən,
Ya da ki, nifrətdən doğulur...

Əvvəl ürəyin ağrılarında,
Yoğrular, yetişər,
Misra-misra ürəkdən axar
Ağ vərəqlərə bələnə-bələnə,
Yetkinləşər.

Şerin də doğum tarixi var.
Ürəkdən gəlməyən şerlər.
Ağ vərəqlərdəcə saralar,
Ölümləşər və unudular.

## AĞRIDAN GÖZƏLLİK DOĞULUR

Bulaqlar damlaların qovuşundan yaranır,
Ovulmaz daşlar dəlir, ləngərli yollar keçir.
Ağrıdan, əzablardan sıza-sıza duranır,
Ehtiyacdan göllənir, kədərdən qollar seçir.

Yazan da bir bulaqdır, gözlərin bənzəri var,
Qəlbi dərdlə yüklənər ağlamasa, yazmasa,
Bahadırdır, təmizdir, anlayan nəzəri var,
Bədbəxtliyi öldürər, anılıb, duyulmasa.

Basdırar sənət özü, yaza-yaza öləni,
Ölə-ölə yazanlar pərəstiş soraqlıdır.
Nurlanıbsa fikirlər, qoymaz yerə qələmi,
Borc duyğusu əzəli, ürəyi çıraqlıdır.

Könlü min bir dərdlidir, bir dərmandır gümanı
Qəzəb duyğularından dolandır, ağlayandır.
Fikri bahar yağışlı, təmizləyər insanı,
Istəyi ülvi duyğu, saf məhəbbət umandır.

## SÖZÜN İŞIĞI

(Nizami Gəncəvinin 850 illiyinə)

Səkkiz yüz əlliyə çatıbdır yaşın,
Hələ yüzilliklər sorağındadır.
Ala buludlara söykənib, başın,
Şairlər süfrənin qırağındadır.

Sözün işığında pərvazlanmısan.
Sözün pəncəsində boğulmusan sən.
Əsirlər boyunca, sığallanmısan,
Gələn yüz illərçün, doğulmusan sən.

Məhəbbət bağında güllər əkmisən,
Sevənlər ətrindən bihuşa dönüb.
Qaymaqlı sözləri elə seçmisən,
Səndən sonra gələn şeriyyət sönüb.

Şöhrətin bu xalqın bəzəyi, şanı,
Hikmətin dirilik suyundan betər.
Tanıtdın düyaya Azərbaycanı,
Indi Azərbaycan sənə gül səpər.

Nizami deyəndə ömrə gün düşər,
Nizami bu yurdun söz sərrafıdır.
Bu gün dahimizlə dünya görüşər,
Sabah da dahilər şahənşahıdır.

Nizami nizamda ön cəbhədədir,
Ardınca gələnlər, diqqətli olun.
Nizami qiyməti bir xəzinədir,
Mənim şair xalqım, onu qoruyun!

## HÜSEYN CAVİDƏ

Fələk səndən naşı çıxdı,
Verdiyini alanmadı.
Ruhu canından ayırdı,
Yoxluğuna inanmadı.

Haray saldım, eldən-elə,
Ellər, şair Cavid hanı?
Asimandan səda gəldi,
Haqqa çatdı. Haqqı tanı...

## BƏŞƏR OĞLU HÜSEYN CAVİDİN OĞLU ƏRTOĞRULA

Ərtoğrul, neçə-neçə illər keçəcək,
Nisgilin cızdağın çıxardacaq ürəklərin,
Anandan bacından betər göynədəcək,
Yandırıb, yaxacaq cigərlərin.

Hər dəfə yad olacaqsan, göz yaşların ilə,
Hər dəfə yaşayacaqsan öskürəklərinlə.
Anan gözləməyəcək yoldaşların ilə,
Sən öskürəcəksən, qan qusaraq ciyərinlə.

Eləcə günlərinə anan qurban Ərtoğrol,
Sənin hünərlərinə atan qurban Ərtoğrol,
Qalxma qanlı-qadalı nisgillərinlə,
Ər hünərinlə vətən torpağında yatan Ərtoğrol.

## SUSANDA DA

Şair həssas olar hər sənətkardan,
Ağlı duyğularla birləşib, daşar.
Ülvü gözəlliklə, gizli arzudan,
İlham atı çapar, eşq ilə yaşar.

Səbirsiz oğuldur ədəbiyyatın,
Bir hissin əlində ağlayar, gülər.
Torpaqdan boylanan neçə arzunun.
Hikmətin anlayar, çarəsin bilər.

Kiçik qərarı da, alov püskürər,
Uğursuz işlərdən qaçar, yıxılar,
Məxsusi gözlərlə, gözəllik görər,
Şairi hər yerdə sevən tapılar.

Adi sözünə də hay-haray qatar,
Şair olan yerdə toydu, mağardı,
Şair yuxuda da şair tək yatar,
Şair susanda da böyük mahaldı.

## PALMA

Yarpaqları yelnazədir,
Qış palmanın, yaz palmanın.
Yam-yaşıldır tər-təzədir,
Bizim bu naz-naz palmanın.

Bir ilahi bənzəri var,
Tovuzquşu ləläyinə.
Seyr etdikcə gözün doyar,
Dinclik axar ürəyinə.

Yaraşıqdır bir salona,
Əyim-əyim budaqları.
Əl eyləyir ona-buna,
Yelpazəli yarpaqları.

## ZÜLEYXA BACIYA

Qıza bənzər həyası var,
Xeyirxahlıq dünyası var.
Hər sözünün mənası var
Züleyxanın, Züleyxanın.

Nar dənəsi dodaqları,
Çəhrayıdı yanaqları,
Xurmayıcadı saçları
Züleyxanın, Züleyxanın.

Dörd tərəfdi dostu, yarı,
Oğlanları dünya varı.
Əri eşqinin vüqarı,
Züleyxanın, Züleyxanın.

Yanağında xalı vardı,
Öz işində sənətkardı,
Var-dövləti kitablardı,
Züleyxanın, Züleyxanın.

Mehribandı mənə, ona,
Min söylədib, yüz də sına.
Yox bənzəri başqasına,
Züleyxanın, Züleyxanın.

## NİNA MIXAYLOVNAYA

Gözlərinin içində dərin kədər yatıbdır,
Üz-gözündə yalançı bir təbəssüm dolaşır.
Saçlarının ağlığı dağda qara çatıbdır,
Baxışında kədərli, bir müəmma sayrışır.

Sanki itirdiyini nə axtarır, nə anır,
Nə keçmişə qayıdır, nə sabaha boylanır.
Bir qəribə sakitlik təbiətində yaşar,
Qəribə tale ilə Nina sözsüz barışar.

Dodağı məlumatlı, genişdir xəyalları,
Arxasınca aparır çox vaxt oxucuları.
Birinə yer göstərər, birinə dəqiq ünvan,
Oxucular razıdır biblioqraf Ninadan.

Oxucunun gözləri daim axtarır onu,
Bəlli olmur sualın nə əvvəli, nə sonu.
Nina sakit, təmkinlə bir-bir baxır, göstərir.
Işi sona çatdımı azacıq gülümsəyir.

Nə əvəz edəni var, nə özgəyə bənzəyir,
Axşam-sabah gülü tək, Nina hey gülümsəyir.
Hamıya əl uzadır, qoymaz kimsəni darda
Nina hanı? yoxdursa, axtarın salonlarda.

## MAFİYƏ XANIMA

Ürəyinə el-obalar sığışar,
Hər könülə ayaq açar Mafiyə.
İlk gördüyü adama da yovuşar
Ürəyinə nurlar saçar Mafiyə.

Çiçək dərər, gül bəsləyər hər zaman,
Çiçəklərdən sovqat elər Mafiyə.
Tuti dilli, əli açıq, mehriban,
Dar ayaqda qəfil gələr Mafiyə.

Bir tikəsin yeddi yerə böləndi,
Pisləri də yaxşı yola çəkər o.
Bağlı yola ümid gülü səpəndi.
Həp düyünü aşkar elər, sökər o.

Arı kimi hər çiçəkdən bal dərər,
Loğman kimi, əlac verər Mafiyə.
İşdə bizi salamlayar hər səhər,
Doğma kimi, üzügülər Mafiyə.

## GÜLBAHARA

Üz-üzəyik bir salonda hər səhər,
Sözümüz bir, söhbətimiz tükənir.
Başqaları gündə gedib gəlirlər,
O, gedəndə bu dərdi göz çəkənmir.

## ONA

Dünyanı özünə yığıb, gedir o,
Dünyanı gözünə yığıb, gedir o,
Dünyanın özündən yığıb, gedir o,
Gedir ağır-ağır, dünyalıq, deyil.

## SƏNƏ

Dünyadan iki əlli ayrılıb,
Ölümün üstünə gedəcəyəm.
Son dəfə geriyə qanrılıb,
Ömrünə köçəcəyəm…

Ağlar qalacaqsan, gülməyəcəksən,
Əzizi gələndə gülənlər kimi,
Yanıb, ağlamaqdan bezməyəcəksən,
Doğması yanında ölənlər kimi.

## BALAMA

Körpə balam, ayaq açıb, yeridin,
Min yol, addımına qurban olmuşam.
Sən dil açıb, mənə «ana» söylədin,
Lətif sözlərinə heyran olmuşam.

Gah «–gəl», deyirsən sən, gah da qaçırsan,
Evimə, könlümə şölə saçırsan.
Sən mənə gah çiçək, gah da ki, nursan,
Parlaq gözlərinə qurban olmuşam.

Ümid çırağımsan, gələcəyimsən,
Şənliyim, sevincim, nəşələrimsən.
Mən sənin ananam, sən də mənimsən,
O nübar canına qurban olmuşam.

## QARDAŞLARIMA

*(Vaqif, Vidadi, Cavanşir, Əlişir, Xaqani.)*

Qardaş, sənə qurban olum,
Dar günümdə həyan oldun,
Qardaş, sənə qurban olum.
Məni qəlbən duyan oldun.

Qardaş, sənə qurban olum,
Adın adıma dayaqdır.
Qardaş, sənə qurban olum,
Ağlın yoluma çıraqdır.

Qardaş, sənə qurban olum,
Sən evimin bəzəyisən.
Qardaş, sənə qurban olum,
Ürəyimin özəyisən.

Qardaş, sənə qurban olum,
Anam sənsən, atam sənsən,
Qardaş, sənə qurban olum
Dar günümə çatan sənsən.

Qardaş, sənə qurban olum,
Ölümü çiynində apar.
Qardaş, sənə qurban olum,
Bacın səni bərkdə tapar.

## TƏSKİNLİK

Üç yol onu çağırdım:
–Azər, Azər, ay Azər.
Cavab vermədi mənə.
Üzdə yaş gilələndi,
Köksümə qəm ələndi,
Kədər gördü gücsüzəm,
Dərd mənə çirmələndi.
Çağırdım: – Azər, Azər,
Yenə cavab vermədi.
O gözləri gülümsər,
Yoxsa, məni görmədi?
Qaçıb, çatdım ona mən.
Anan qurban, oxşadım...
Baxıb, göz qulağıynan,
Getdi. Mən də toxdadım.

## QAÇAR OLDUM

Yaxşılıq etdim hər an,
Pisliyə düçar oldum.
Dostluq əli uzatdım,
Təklikdə naçar oldum.
Dostların qəmin alıb,
Şad etdim,
Dərd üstə dərd gətirən,
Dostlara düçar oldum.
Nəzakət, aç gözünü,
Gör ki, kimdi dörd tərəfin,
Niyə qalıb peşiman,
Hər kəsdən qaçar oldun.

## KİMDİR GÜNAHKAR?

Sən özündən çıxansan,
Mənsə qayda gözləyən.
Sən evləri yıxansan,
Mən səni əzizləyən.
Günahkar kimdi burda?
Sual verdin bir axşam.
Cavab tapa bilməyib,
Ancaq sənə baxmışam.

## BİR XATİRƏ

Baba, zəhmətlərin min bar yetirib,
Mənə də əbədi şöhrət gətirib.
Ay zəhmətkeş babam, sən gilə-gilə,
Günləri, ayları caladın ilə.
Öz iş otağında, əzmlə, hər an,
Yazıb yaratdığın çıxmır yadımdan.
Yenə də döyüşkən, işgüzar babam,
Gözləri nurani, saçı qar babam,
Ürəyim açılır görəndə səni,
Təmiz unuduram dərdi, qüssəni.
Şirin xatirələr daim dilimdə,
Andıqca qalıram sevinc selində.
Ay mənim dağ babam, dağ vüqarımsan,
Mən sənin şirinin, sənsə canımsan.
Bahardır, gəl çıxaq yazın seyrinə,
Bataq çiçəklərin, gülün şehinə,
Gizlənpaç oynayaq yenə ikimiz.
Mən səni axtarım, mən səni tapım,
Qalaq bəxtəvərlik növrağında biz.

## UZUN YOL

Doğulduğum gündən,
Ölməyə hazırlaşıram.
Ölümün gözünə baxa-baxa,
Pislikdən uzaqlaşıram…

## ELM

Elm elə pəridir,
Ilğım olub, alar səni.
Sanma ağıl cövhəridir,
Ahıllığa calar səni.

## NİGAH

Şeri həyatın mənası sandım,
Ona könül verdim, ona inandım.
Gördüm ki, ilhamım əl çəkməyəcək,
Özüm razı olub, tez nigahlandım.

## *P Ö H R Ə L Ə R*

### YAZ

Qurtardı şaxta, ayaz,
Qonaq gəldi bizə yaz,
Dağlarda əridi qar,
Çiçəkləndi ağaclar.
Çölə gedir quzular,
Çiçək açır arzular.
Artır çaylardakı su,
Hamıya xoş gəlir bu.
Yazda hər şey dəyişir,
Təbiət gözəlləşir.

### MƏN MƏKTƏBƏ GEDİRƏM

Mən yuxudan duranda,
Ulduz olur havada,
Quşlar olur yuvada.
Çox erkəndən dururam,
Əl-üzümü yuyuram.
Sonra quşlar oynayır,
Göydən Günəş boylanır…
Çantamı götürürəm,
Mən məktəbə gedirəm.

### MÜBARƏK

Payızda doğulubdu,
Adı Bahar olubdu.
Ad günündə çiçək tək,
Bəzənib, ay mübarək.

Böyük qız olub, gəlib,
Üç gündür ki, dincəlib,
Oxşanıb, əzizlənib,
Bəzənib, ay mübarək.

Baxışı çiçək Bahar,
Sifəti göyçək Bahar,
Ad günün gəlib, keçib,
Çay dəmlə, içək Bahar.

Bahar bizə çay qoyar,
Konfetindən pay qoyar,
Hərdən mahnı oxuyar,
Gül üstəki bülbültək,
Ay bayramın mübarək.

## SƏXAVƏT

…Fıstıq ağaclarından,
Kəsib şiş düzəltdilər.
Quba toğlularından,
Seçib, biş düzəltdilər.

Göy çəməndə bişirib,
Bardaş qurub, yedilər.
«Heyıf buz bulaqlara,
Axıb gedir», dedilər.

Zümrüd meşələr baxıb,
Gözlərini oxşadı.
Dincələnlər meşəyə,
Bir küllük bağışladı.

## NURƏDDİN ƏMİ

Nurəddin əmi şəkil çəkəndir,
Həm rəssamdır o, həm ev tikəndir.
Uşaqlarla o, çox mehribandır,
Nurəddin əmi yaxşı oğlandır.

## BİR BİRİNDƏN ƏZİZLƏR

Leyla, Xavər və Azər,
Nənə üçün incidir.
Elnarə balam isə,
Hamının sevincidir.

## AZƏRƏ

Bir oğlum var, adı Azər,
Özü dəcəl, oda bənzər.
Məndən tutar, asta gəzər,
Gözəl Azər, gözəl Azər.

Kiprikləri uzun-uzun,
Dodaqları dadım, duzum.
Saçı qıvrım, mənim quzum,
Gözəl Azər, gözəl Azər.

Gəl, deyəndə qaçar gələr,
Dindirməmiş baxar, gülər,
Üz-gözündən gül tökülər,
Gözəl Azər, gözəl Azər.

## RAZİMƏ

Əmilər höcətləşir,
Hay-küy salıb, dururdu.
–Dəlləyi çağırıram,
Razim barmaq vururdu…

## GÖRÜŞƏNƏDƏK

«Bütün görüşlərin sonu ayrılıq
Bütün ayrılıqlar sonda görüşdü».
Ilahi, oğuldan, qızdan ayrıyam
Nə vaxt rəhmin gəlsə, onda görüşdür.

Taleyə həmişə boyun əymişəm,
Qismətdən artığı yeməmişəm mən.
Tale yazısını mən pozmamışam,
Bəxtimə düşəni eyləmişəm mən.

Ilahi, oğuldan, qızdan ayrıyam
Nə vaxt vaxtın olsa, onda görüşdür.
«Bütün görüşlərin sonu ayrılıq
Bütün ayrılıqlar sonda görüşdür».

***1988 – 1992***

## KİTABIN İÇİNDƏKİLƏR

### VƏTƏN AĞRILARI

Vətən ........................................................ 3
Dözmürəm ................................................... 3
Müstəqillik ................................................... 4
Şəhid ........................................................ 5
19-dan 20-nə keçən gecəyə ağı ........................ 5
Araz dərdi .................................................... 6
Hər gün ...................................................... 7
O dünyadan məktub ..................................... 7
Müasirlik ..................................................... 8
Həyat ......................................................... 8
Gözəllik aşiqiyəm ........................................ 9

### DUYĞULAR, HƏSRƏTLƏR

Tərcümeyi-hal ............................................. 10
Bir urəkdə .................................................. 11
Qıya bilmirəm ............................................. 11
Gözlərimin günahı ........................................ 11
Səni axtarıram ............................................. 12
Əgər sevinsən ............................................. 12
Gözəllik eşqiylə sevək sevgilim ..................... 12
Bəxşiş ........................................................ 13
Sənin kimi .................................................. 14
Istək .......................................................... 14
Son ümidim nəğmələrdi.................................. 14
Fərəhim mənim ............................................ 15
Bilərsən ...................................................... 15
Səni gözləyəcəyəm ....................................... 16
Pünhanlıq ................................................... 16
Qıymadı ..................................................... 17
Uymadım .................................................... 17
Duyub, sevmişəm ......................................... 18
Sən demə .................................................... 18
Gözüm qalmayıb .......................................... 19

Bilmədim ………………………………………….. 19
Unutma məni ………………………………………. 20
Xoşuma gəlir ………………………………………. 20
Mən sənə əlvida demirəm ……………………... 21
Daş atdın ………………………………………….. 21
Ilhamım ol …………………………………………. 22
Şirin yuxu kimi ……………………………………. 22
Kədər yolda yubansın ………………………….. 23
Ümid dolu piyalə ………………………………… 23
Məhəbbət ………………………………………… 24
Xoşbəxti tale seçir ………………………………. 24
Ox və hədəf ………………………………………. 25
Tapşır gözlərinə …………………………………... 25
Hədiyyə …………………………………………… 26
Dördlüklər ………………………………………… 26
Qurbanam ………………………………………… 27
Istəyirsən ………………………………………….. 28
Kefimin kefidir ……………………………………. 28
Gözləyəcəyəm …………………………………… 29
Səndən yaxınım …………………………………. 29
Məni sən oxu ……………………………………. 30
Ərk elədin ………………………………………… 30
Dedin – dedim …………………………………….. 31
Adilər içində ……………………………………… 32
Nəğməli ömür …………………………………….. 32
Ayırsa ölüm ……………………………………….. 33
Səbirli ol …………………………………………... 34
Dünyanı dərk etmişəm ………………………… 34
Kədər ……………………………………………… 35
Görüşə gəlməmişdin …………………………… 36
Görüş ……………………………………………… 37
Sədaqət gətir ……………………………………. 37
Vüsal ……………………………………………… 38
Xoşbəxtlik ………………………………………… 38
Özüm ……………………………………………… 38
Sus, sus …………………………………………… 39

Özgəsinə uyan ………………………………….. 39
Qadan alım …………………………………….... 40
Axdı getdi ………………………………………. 41
Qovğaya saldı …………………………………... 41
Şah varağımsan …………………………………. 42
Xəyallarım çin olarma? ………………………… 42
Indi sənə çatmır əlim …………………………... 43
Qorxu ……………………………………………. 43
Təki ……………………………………………... 43
Qəriblik ………………………………………… 44
Qoçaq dayanar …………………………………. 44
Üşütmə …………………………………………. 45
Dördlüklər ……………………………………… 45
Qayıt …………………………………………….. 46
Necə qaçsan ……………………………………. 46
Xoş söz ………………………………………….. 47
Gözüm axtarıb səni …………………………….. 47
Görüş …………………………………………… 48
Ya da …………………………………………… 48
Səndən küsə-küsə ……………………………… 49
Qayıt yerinə …………………………………….. 49
Ah, kaş ki ………………………………………. 50
Bir dərin gecədir ……………………………….. 50
Daha ……………………………………………... 50
Kölgən ilə ……………………………………….. 51
Sən necə dözdün? ………………………………. 52
Könlünü qoru …………………………………… 52
Yanarsan ………………………………………... 53
Çıxdım qismətinə yerdən küp kimi ……………… 53
Gəlmədi, gəlmədi ……………………………… 54
Səni sevənə yazıq ………………………………. 54
Yıxma könlümü …………………………………. 55
O, yuxu idi ……………………………………… 55

## GÖYNƏRTİLƏR

Qaranlıq…………………………………………. 57
Balalı ceyran ……………………………………. 57

Demə ........................................................ 58
Yalandı yalan ............................................. 58
Qısqanır məni .......................................... 59
Yaxşı ki, sabahlar özləri gəlir ......................... 59
Atalar sözünə.............................................. 60
Ağ kağıza dedim ........................................ 61
Gedirəm .................................................... 61
Haqq nazilər üzülməz ................................ 62
Qorxma ...................................................... 62
Zəncir sədaqəti ........................................... 63
Səadət deyil ............................................... 63
Tamahkar ................................................... 64
Qismətim ................................................... 65
Uyudum məhəbbətin layla ........................... 65
Ümidlər ..................................................... 66
Sükut ......................................................... 67
Dolmuş buluda bənzəyirəm .......................... 68
Fitnəsi var ................................................. 68
Hələ görmürəm ........................................... 70
Yenə? ........................................................ 71
Boyumu əyər .............................................. 71
Alışıram mən .............................................. 71
Qayıdanda .................................................. 72
Hökmranlıq qurtardı ................................... 73
Ad günü ..................................................... 74
Sevdiiyim gündən ........................................ 74
Istəmədən ................................................... 75
Ata yurdunda .............................................. 75
Deyəsən ..................................................... 76
Bacarmadım ............................................... 77
Bəs niyə? ................................................... 77
Zərərin yarsı .............................................. 78
Dördlüklər .................................................. 78

## TƏSƏLLİLƏR

Təsəlli ..................................................... 79
Zəhmətim naminə ..................................... 79
Heyif ......................................................... 79
Sən bəxtimə çıxmadın ................................ 80
İstəyirəm ................................................. 80
Sevmişəm .................................................. 81
Söz axtarıram ............................................ 82
Şerin doğumu ........................................... 82
Ağrıdan gözəllik doğulur .......................... 83
Sözün işığı.................................................. 84
H.Cavidə ................................................... 85
Ərtoğrola .................................................. 85
Susanda da ................................................ 85
Palma ........................................................ 86
Züleyxa bacıya .......................................... 87
Nina Mixaylovnaya ................................... 87
Mafiyə xanıma .......................................... 88
Gülbahara ................................................. 89
Ona ........................................................... 89
Sənə .......................................................... 89
Balama ..................................................... 89
Qardaşlarıma ............................................ 90
Təskinlik ................................................... 91
Qaçar oldum .............................................. 91
Kimdir günahkar? ..................................... 92
Bir xatirə ................................................... 92
Uzun yol ................................................... 93
Elm ........................................................... 93
Nigah ........................................................ 93

## PÖHRƏLƏR

Yaz ………………………………………………… 94
Mən məktəbə gedirəm ……………………………. 94
Mübarək ………………………………………... 94
Səxavət …………………………………………. 95
Nurəddin əmi …………………………………... 96
Bir-birindən əzizlər……………………………... 96
Azər …………………………………………….. 96
Razimə ………………………………………….. 97
Görüşənədək …………………………………… 97

**Nəzakət Məhərrəm qızı Əzizova**

**Gözlərimin günahı**

**şeirlər**

**Rəssam: S.Abdullayev**

**Kompüterdə yığanı və korrektoru: T.İbadova**

Çapa imzalanıb 19.09.2008-ci il
Sifariş № 279. Sayı 100.
Həcmi 6,5.
Formatı 60x84 $^{1}/_{16.}$ Əla növ kağız.

***AzTU-nun mətbəəsi. H.Cavid pr.25.***
***Tel: (+012) 439-14-52***
***E.mail: aztumetbee@yahoo.com***